## PREZİDENT İLHAM ƏLİYEV NATO BAŞ KATİBİNİN MÜAVİNİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də NATO baş katibinin müavini xanım Rouz Qotemöllerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, xanım Rouz Qotemöller NATO-nun baş katibi Yens Stoltenberqin salamlarını dövlətimizin başçısına çatdırıb. Görüşdə Azərbaycan ilə NATO arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilib...



Bax səh. 2

## BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA NATO BAŞ KATİBİNİN MÜAVİNİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜB

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sentyabrın 20-də NATO baş katibinin müavini xanım Rouz Qotemöllerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Azərbaycanın NATO ilə əməkdaşlığa böyük əhəmiyyət verdiyini vurğulayan Birinci vitse-prezident Mehriban Əliyeva ölkəmizin Alyansın müxtəlif tədbirlərində iştirak etdiyini bildirib. Qeyd edib ki, 2002-ci ildən başlayaraq Azərbaycan sülhməramlıları...



Bax səh. 2



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 21 sentyabr 2018-ci il, cümə / № 178 (5305). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik

# Prezident İlham Əliyev bir sıra ölkələrin parlament rəhbərlərini qəbul edib





## Prezidentin iş günü

Prezident İlham Əliyev Malta Respublikasının Prezidenti Zati-aliləri xanım Mari-Luiz Koleyro Prekaya təbrik məktubu göndərib.

## 2018-ci ilin əvvəlindən bəri ölkə üzrə 200-dən çox məktəb tikilib və yaxud təmir olunub

Son 15 ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə məktəb tikintisinə dair bir neçə Dövlət Proqramı qəbul edilib. Bundan başqa, digər sahələri əhatə edən Dövlət proqramlarında da məktəb tikintisinə böyük diqqət yetirilir. Məsələn, regionların, Bakı şəhərinin və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı ilə bağlı, eləcə də yoxsulluğun azaldılması, məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması ilə bağlı Dövlət proqramlarında məktəb tikintisinə dair geniş müddəalar öz əksini tapıb. Eyni zamanda, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə...

Bax səh. 8

## Ötən 24 ildə "Əsrin müqaviləsi" Azərbaycanın dinamik inkişafının əsas mənbəyi rolunda çıxış edib



Azərbaycanda neftçıxarmanın tarixi uzun bir dövrü əhatə edir. Quruda və dənizdə zəngin karbohidrogen ehtiyatlarına malik olan respublikamız bütün dünyada neftçıxarmada bir sıra yeni ənənələrin əsasını qoyub...

Bax səh. 3



## AZƏRBAYCAN MİLLİ MƏCLİSİ İLƏ NATO PARLAMENT ASSAMBLEYASI ARASINDA SIX ƏLAQƏLƏR MÖVCUDDUR

Sentyabrın 20-də Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov NATO baş katibinin müavini xanım Rouz Qotemöllerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb...

Bax səh. 2

## BU GÜN AZƏRBAYCAN GƏNCLİYİNDƏ VƏTƏNPƏRVƏRLİK RUHU ÇOX YÜKSƏKDİR

...Ümumiyyətlə, Yeni Azərbaycan Partiyası geniş beynəlxalq əlaqələrə malikdir. YAP Gənclər Birliyi də partiya rəhbərliyinin dəstəyi ilə bu istiqamətdəki fəaliyyətini daha da genişləndirməyə çalışır. Bir sıra ölkələrin siyasi partiyaları ilə ikitərəfli münasibətlərimiz mövcuddur. Eləcə də beynəlxalq gənclər təşkilatları çərçivəsində də işimizi yüksək səviyyədə qurmağa çalışırıq. Bilirsiniz ki, YAP Gənclər Birliyi İCAPP-ın gənclər qolunun üzvüdür və bu qurumda sədr müavini səviyyəsində təmsil olunur. Biz həmçinin Avropa Xalqları Partiyasının (EPP) gənclər təşkilatları ilə də əməkdaşlıq edirik. DEMYC təşkilatına gəlincə, YAP Gənclər Birliyi bir neçə il idi ki, onun müşahidəçi statuslu üzvü idi. Bu təşkilat nəinki Avropada, bütün dünyada nüfuza sahib olan beynəlxalq gənclər təşkilatıdır və bütün qitələri özündə birləşdirir. Təşkilata tam hüquqlu üzv olmaq üçün xeyli vaxtdır iş aparılırdı və bu, öz nəticəsini verdi. DEMYC-in Bakıda keçirilən Mərkəzi Şura iclasında YAP Gənclər Birliyinin...

Bax səh. 7



## AZƏRBAYCAN-PAKİSTAN ƏLAQƏLƏRİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNUB

Sentyabrın 20-də Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov ölkəmizdə səfərdə olan Pakistan İslam Respublikası Senatının sədri Məhəmməd Sadiq Səncari ilə görüşüb...

Bax səh. 3

## ƏQİDƏSİNƏ SADİQ ZİYALI

Bütün dövrlərdə vətənpərvər, ziyalı insanlar olub və belə insanlar hər zaman ictimai fəallığı ilə cəmiyyətin ön sıralarında gediblər. Tanınmış ictimai-siyasi xadim, Milli Məclisin sabiq sədri, Əməkdar hüquqşünas Murtuz Ələsgərovun haqqında düşünəndə, ilk növbədə, yada bu sözlər düşür. Bəli, ziyalılıq və fəal vətəndaş mövqeyi Murtuz Ələsgərovun portretini tamamlayan əsas cəhətlər idi. Sentyabrın 20-də Murtuz Ələsgərovun anadan olmasının 90 ili tamam oldu...

Bax səh. 4

## Ceyrançöl layihəsi üzrə ümumilikdə 6600 hektar ərazi təmizlənərək 18 mindən çox partlamamış hərbi sursat zərərsizləşdirilib



Ceyrançöl layihəsi üzrə ümumilikdə 6600 hektar ərazi təmizlənərək 18 mindən çox partlamamış hərbi sursat zərərsizləşdirilib. AZƏRTAC xəbər verir ki, bu fikir sentyabrın...

Bax səh. 4

### Aşura günü ilə əlaqədar Təzəpir məscidində qanvermə aksiyası keçirilib



Sentyabrın 20-də Aşura günü ilə əlaqədar Təzəpir məscidində qanvermə aksiyası keçirilib. AZƏRTAC xəbər verir ki, Qafqaz Müsəlmanları İdarəsinin sədri...

Bax səh. 6

### Naxçıvanda Aşura mərasimləri keçirilib



Hər il Məhərrəm ayı və onun Aşura günü muxtar respublikada İslamın dəyərlərinə uyğun qeyd olunur. Məhərrəm ayı tarixboyu bütün səmavi dinlər tərəfindən sülh və əmin-amanlıq ayı kimi qəbul olunub...

Bax səh. 6

### *Səccad Kərim:* Azərbaycanda mövcud olan birgəyaşayış modeli bir çox ölkələr üçün nümunədir



Sentyabrın 20-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Avropa İttifaqının...

Bax səh. 5

### *Professor Oleq Kuznetsov:* SSRİ DTK da daşnakları təhlükəli hesab edib



Sentyabrın 20-də rusiyalı tarixçi və hüquqşünas, professor Oleq Kuznetsov "Ermənistan: Faşizm tüğyan edən ölkə" mövzusunda mətbuat konfransı keçirib. AZƏRTAC xəbər verir ki...

Bax səh. 7

# Prezident İlham Əliyev bir sıra ölkələrin parlament rəhbərlərini qəbul edib



Sentyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan parlamentinin 100 illiyi münasibətilə keçiriləcək təntənəli iclasda iştirak etmək üçün ölkəmizə səfərə gələn Cibuti Milli Assambleyasının sədri Məhəmməd Əli Humedi, Oman Sultanlığı Dövlət Şurasının sədri Yahya bin Məhfuz Əl-Munzirini, Küveyt Millət Məclisinin sədri Mərzuq Əli əl-Ğanimi, Pakistan Senatının sədri Məhəmməd Sadiq Səncarini, Bolqarıstan Milli Assambleyasının sədri xanım Tsveta Karayançevanı, Qırğızıstan Joqorku Keneşinin sədri Dastanbek Cumabekovu, Misir Nümayəndələr Palatası sədrinin birinci müavini Mahmud Əhməd Şərifi və ATƏT Parlament Assambleyasının prezidenti George Tseretelini qəbul edib.



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı, ilk növbədə, Azərbaycan parlamentinin yaradılmasının 100 illiyi münasibətilə keçirilən tədbirin önəmini vurğulayıb və bu tədbirdə iştirak etmək üçün ölkəmizə səfərə gələn qonaqlara təşəkkür edib. Dost ölkələrin nümayəndələrinin bu tədbirdə təmsil olunmasını ölkələrimiz arasında tərəfdaşlıq münasibətlərinin nümayişi kimi dəyərləndirən Prezident İlham Əliyev onların təmsil etdikləri ölkələrə səfərlərini məmnunluqla xatırlayıb. Dövlətimizin başçısı bildirib ki, ölkələrimiz arasında ikitərəfli münasibətlər çox yaxşı səviyyədədir və əlaqələrimiz müxtəlif sahələri əhatə edir. Prezident İlham Əliyev deyib ki, qonaqların ölkəmizə bu səfəri onların həm Azərbaycanla yaxından tanış olmaları üçün yaxşı imkan yaradacaq, həm də parlamentlərarası əməkdaşlığın genişləndirilməsi işinə öz töhfəsini verəcək.

Küveyt Millət Məclisinin sədri Mərzuq Əli əl-Ğanim Küveyt Dövlətinin Əmiri Sabah əl-Əhməd əl-Cabir əl-Sabahın salamlarını dövlətimizin başçısına çatdırıb. O, tədbirdə şəxsən Küveyt Dövlətinin Əmiri Sabah əl-Əhməd əl-Cabir əl-Sabahın tapşırığı ilə iştirak etdiyini deyib. Mərzuq Əli əl-Ğanim Bakıya birinci dəfə səfər etdiyini vurğulayaraq bildirib ki, paytaxtımıza gəldiyi ilk andan şəhərdəki gözəllik və inkişaf onlarda böyük təəssürat yaradıb. O, əminliklə bildirib ki, bu cür tədbirlər parlamentlərarası əməkdaşlığın daha da möhkəmləndirilməsi, eyni zamanda, digər ölkələrin və xalqların Azərbaycanla daha da yaxınlaşması işinə xidmət edir. Küveytli qonaq Prezident İlham Əliyevə və Azərbaycan xalqına ən xoş arzularını çatdırıb. O, ölkəmizə məmnunluqla yenidən səfər edəcəklərinə ümidvar olduqlarını bildirib.

Prezident İlham Əliyev Azərbaycanın beynəlxalq aləmdə fəal əməkdaşlıq həyata keçirdiyini və ölkəmizin dostlarının sayının gündən-günə artdığını vurğulayıb.

Dövlətimizin başçısı Küveyt Dövlətinin Əmiri Sabah əl-Əhməd əl-Cabir əl-Sabahın salamlarına görə minnətdarlığını bildirib, Onun da salamlarını Küveyt dövlətinin başçısına çatdırmağı xahiş edib.

Sonda xatirə şəkli çəkdirilib.

# Azərbaycan Milli Məclisi ilə NATO Parlament Assambleyası arasında sıx əlaqələr mövcuddur



Sentyabrın 20-də Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov NATO baş katibinin müavini xanım Rouz Qotemöllerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Oqtay Əsədov belə görüşlərin NATO ilə Azərbaycan arasındakı əlaqələrin inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib.

Sədr diqqətə çatdırıb ki, Azərbaycan NATO tərəfindən həyata keçirilən sülhməramlı dəstək proqramlarında iştirak edir. Hazırda 120 Azərbaycan əsgəri Əfqanıstanda xidmət edir.

Milli Məclisin sədri Azərbaycan Milli Məclisi ilə NATO Parlament Assambleyası arasında sıx əlaqələrin olduğunu söyləyib. Xatırladıb ki, NATO Parlament Assambleyasının iqtisadiyyat və təhlükəsizlik komitəsinin keçid və inkişaf altkomitəsinin iclası ölkəmizdə uğurla keçirilib.

NATO baş katibinin müavini Rouz Qotemöller Azərbaycan parlamentinin yaranmasının 100 illiyi münasibətilə təbriklərini çatdırıb. O, belə bir əlamətdar vaxtda ölkəmizdə olmaqdan məmnunluğunu bildirib.

Qonaq qeyd edib ki, Azərbaycanın NATO-nun sülhməramlı dəstək proqramlarında iştirakı yüksək qiymətləndirilir. Prezident İlham Əliyevin bu ilin iyul ayında Brüsseldə NATO-nun Əfqanıstanda Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşündə iştirakını və çıxışını yüksək qiymətləndirən baş katibin müavini vurğulayıb ki, bütün bunlar Azərbaycan-NATO tərəfdaşlığını daha da möhkəmləndirir.

Görüş qarşılıqlı maraq doğuran digər məsələlərin müzakirəsi ilə davam etdirilib.

# Pakistan Senatının sədri Milli Məclisdə olub

Sentyabrın 20-də Milli Məclisin sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Pakistan İslam Respublikası Senatının sədri Məhəmməd Sadiq Səncarinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında əməkdaşlığın daha da dərinləşdirilməsi məsələləri müzakirə olunub.

Oqtay Əsədov Azərbaycanın və Pakistanın dost və qardaş ölkələr olduğunu qeyd edib. Bildirib ki, müxtəlif səviyyəli nümayəndə heyətlərinin səfərləri, keçirilən görüşlər və aparılan danışıqlar ölkələrimiz arasında mövcud olan əlaqələrin daha da möhkəmlənməsinə təkan verir. Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk ölkələrdən olan Pakistanla əlaqələr bir çox sahələrdə yüksələn xətlə inkişaf edir.

Milli Məclisin sədri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, onun ağır fəsadları barədə də danışıb. O, BMT-də münaqişənin həlli ilə bağlı qəbul edilən sənədlərdən söhbət açıb və Pakistanın Azərbaycanın haqlı mövqeyini dəstəklədiyini yüksək qiymətləndirib. Oqtay Əsədov Pakistan Senatında Xocalı soyqırımı ilə bağlı qəbul olunan sənədin önəmini xüsusilə vurğulayıb.

Senatın sədri Məhəmməd Sadiq Səncari yüksək səviyyəli qonaqpərvərliyə görə təşəkkürünü ifadə edib. Bildirib ki, qarşılıqlı səfərlər münasibətlərimizin daha da dərinləşməsinə xidmət edir. Yüksək səviyyəli nümayəndə heyətlərinin, o cümlədən deputatların görüşləri, müxtəlif beynəlxalq tədbirlərdə səmərəli əməkdaşlığı çox önəmlidir.

Söhbət zamanı tərəfləri maraqlandıran bir sıra aktual məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Prezident İlham Əliyev NATO baş katibinin müavininin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də NATO baş katibinin müavini xanım Rouz Qotemöllerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, xanım Rouz Qotemöller NATO-nun baş katibi Yens Stoltenberqin salamlarını dövlətimizin başçısına çatdırıb.

Görüşdə Azərbaycan ilə NATO arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilib, Azərbaycan Prezidenti İlham Əliyevin NATO mənzil-qərargahına səfərlərinə toxunulub, dövlətimizin başçısının son səfərinin önəmi qeyd olunub. Bu ilin iyulunda NATO-nun Brüsseldə keçirilən Zirvə toplantısında Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə dəstəyin ifadə olunması yüksək qiymətləndirilib.

Söhbət zamanı Azərbaycan hərbçilərinin Əfqanıstandakı sülhməramlı əməliyyatlara verdiyi dəstək yüksək dəyərləndirilib, Əfqanıstana daşımalar sahəsində Azərbaycanın rolu xüsusi vurğulanıb, ölkəmizin Əfqanıstandakı missiyalara nəqliyyat, logistik dəstəyindən danışılıb və eləcə də Azərbaycanın Əfqanıstan hökumətinə müxtəlif sahələrdə göstərdiyi yardımların əhəmiyyəti qeyd olunub və Azərbaycanın göstərdiyi bütün bu səylərə görə minnətdarlıq ifadə edilib.

Görüşdə, həmçinin ölkəmizin Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfə yüksək dəyərləndirilib.

Dövlətimizin başçısı NATO-nun baş katibi Yens Stoltenberqin salamlarına görə minnətdarlığını bildirib, Onun da salamlarını NATO-nun baş katibinə çatdırmağı xahiş edib.

# Birinci vitse-prezident Mehriban Əliyeva NATO baş katibinin müavininin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sentyabrın 20-də NATO baş katibinin müavini xanım Rouz Qotemöllerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın NATO ilə əməkdaşlığa böyük əhəmiyyət verdiyini vurğulayan Birinci vitse-prezident Mehriban Əliyeva ölkəmizin Alyansın müxtəlif tədbirlərində iştirak etdiyini bildirib. Qeyd edib ki, 2002-ci ildən başlayaraq Azərbaycan sülhməramlıları NATO hərbçiləri ilə Əfqanıstanda çiyin-çiyinə xidmət edir, 2018-ci ilin yanvar ayından Qətiyyətli Dəstək Missiyasında Azərbaycan hərbçilərinin sayını 30 faiz artıraraq 120 nəfərə çatdırıb. Ölkəmiz, həmçinin Əfqanıstanın milli ordusuna maliyyə yardımı göstərir, logistika və nəqliyyat problemlərinin həllinə kömək edir, Əfqanıstan ordusunun şəxsi heyəti üçün təlimlər təşkil edir.



NATO ilə Azərbaycan arasında yüksək səviyyəli dialoqun uğurla inkişaf etdiyindən məmnunluğunu ifadə edən Mehriban Əliyeva Azərbaycan Prezidenti İlham Əliyevin bu ilin iyulunda Brüsseldə NATO Zirvə toplantısında iştirakının və Alyansın baş katibi Yens Stoltenberqlə keçirilən görüşünün ölkəmizlə təşkilat arasında ikitərəfli əlaqələrin inkişafına xidmət etdiyini vurğulayıb. Birinci vitse-prezident bildirib ki, NATO-ya üzv dövlətlər tərəfindən Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün birmənalı dəstəklənməsi ölkəmizdə yüksək dəyərləndirilir. Mehriban Əliyeva onu da vurğulayıb ki, Azərbaycan NATO-nun gender məsələlərinə, qadınlar, sülh və təhlükəsizlik mövzusuna böyük diqqətini alqışlayır. **"Çox xoşdur ki, bu mövzuya həsr olunan konfrans bu günlərdə Azərbaycanda keçirilib"**, - deyən Birinci vitse-prezident ölkəmizdə gender bərabərliyinin dövlət siyasətinin prioritetlərindən biri olduğunu qeyd edib. Bildirib ki, hələ 100 il əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin atdığı addımlardan biri də qadınlara seçki hüququnun verilməsi idi. **"Fəxr edirik ki, hələ XX əsrin əvvəllərində Azərbaycan qadınları bir sıra inkişaf etmiş ölkələrdən əvvəl bu bərabərliyə nail olublar"**, - deyən Mehriban Əliyeva müstəqilliyimizi bərpa etdikdən sonra qadınların ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak etdiklərini, parlamentdəki deputatların 17 faizini qadınların təşkil etdiyini diqqətə çatdırıb, bu göstəricinin gələcəkdə daha da artacağına ümidvar olduğunu bildirib. Birinci vitse-prezident ordumuzda kişilərlə yanaşı 1600 qadının xidmət göstərdiyini, Azərbaycanda əsrlərboyu qadınlara böyük hörmətlə yanaşıldığını və bu gün də bu ənənənin davam etdiyini vurğulayıb.

Azərbaycanın sülhsevər ölkə olduğunu, qonşuları və digər ölkələrlə qarşılıqlı hörmət əsasında əlaqələr qurduğunu xüsusi vurğulayan Mehriban Əliyeva buna baxmayaraq artıq 25 ildir ki, Ermənistanın işğalçılıq siyasətindən əziyyət çəkdiyimizi, beynəlxalq səviyyədə ölkəmizin ərazisi kimi tanınan Dağlıq Qarabağın və onun ətrafındakı 7 rayonun bu siyasət nəticəsində işğal altında qaldığını, 1 milyondan çox insanın qaçqın və məcburi köçkün həyatı yaşadığını, münaqişə zamanı yüzlərlə azərbaycanlı qadının öldürüldüyünü, girov götürüldüyünü, Xocalı faciəsi zamanı 600-dən çox insanın, o cümlədən qadın və uşaqların vəhşicəsinə qətlə yetirildiyini diqqətə çatdırıb. Bildirib ki, BMT Təhlükəsizlik Şurası 25 il əvvəl işğalçı qüvvələrin Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması ilə bağlı 4 qətnamə qəbul etsə də, bu işğalçılıq siyasəti hələ də davam edir. Münaqişənin ədalətli şəkildə, beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinin tərəfdarı olduğumuzu qeyd edən Mehriban Əliyeva bildirib ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalı, qaçqınlar öz doğma yurdlarına qayıtmalıdırlar və bundan sonra regionda sülh bərqərar olacaq. **"Sülh, təhlükəsizlik xalqlar arasında qarşılıqlı anlaşmanı təmin edən amillərdir"**, - deyən Birinci vitse-prezident NATO-nun humanitar fəaliyyətinin Azərbaycanda yüksək qiymətləndirildiyini, bu sahədə təşkilatla sıx əməkdaşlığa hazır olduğumuzu diqqətə çatdırıb.

**"Əmin ola bilərsiniz ki, Sizin söylədiyiniz fikirləri biz özümüz üçün qeyd etdik"**, - deyən NATO baş katibinin müavini Rouz Qotemöller Azərbaycana səfərlərindən məmnunluğunu ifadə edib, Bakıda "Qadınlar, sülh və təhlükəsizlik" mövzusunda konfransın ölkəmiz üçün əlamətdar gündə - Azərbaycan parlamentinin 100 illiyi ərəfəsində keçirildiyini söyləyib. Bakının gözəlliyindən danışan qonaq ölkəmizin əldə etdiyi nailiyyətlərdən məmnunluğunu bildirib.

# Tsveta Karayançeva: Bolqarıstan-Azərbaycan əlaqələri inkişaf edir

Sentyabrın 20-də Milli Məclisin sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Bolqarıstan Respublikası Milli Assambleyasının sədri xanım Tsveta Karayançevanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, Oqtay Əsədov görüşdə ölkələrimiz arasındakı dostluq əlaqələrinin tarixindən danışıb. Bildirib ki, Azərbaycan-Bolqarıstan münasibətləri inkişaf edir. O, Azərbaycan-Bolqarıstan əlaqələrinin inkişafında dövlətlərimizin başçılarının rolunu və qarşılıqlı səfərlərin əhəmiyyətini vurğulayıb və bu səfərin əlaqələrimizin inkişafına təkan verəcəyinə ümidvar olduğunu qeyd edib.

Xanım Tsveta Karayançeva Azərbaycan və Bolqarıstan arasında əlaqələrin müxtəlif sahələrdə inkişafının məmnunluq doğurduğunu söyləyib. O bildirib ki, bu əməkdaşlıq dövlətlərimizin və xalqlarımızın daha da yaxınlaşmasına şərait yaradıb. Milli Assambleyanın sədri birgə fəaliyyətin öz bəhrəsini verəcəyinə əminliyini ifadə edib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Ötən 24 ildə "Əsrin müqaviləsi" Azərbaycanın dinamik inkişafının əsas mənbəyi rolunda çıxış edib

## *Uğurlu enerji siyasəti ölkəmizin milli maraqlarına xidmət edir*

Azərbaycanda neftçıxarmanın tarixi uzun bir dövrü əhatə edir. Quruda və dənizdə zəngin karbohidrogen ehtiyatlarına malik olan respublikamız bütün dünyada neftçıxarmada bir sıra yeni ənənələrin əsasını qoyub. Bununla belə, xalqımız malik olduğu təbii sərvətinin - zəngin karbohidrogen ehtiyatlarının bəhrəsini yalnız müstəqillik illərində görməyə başlayıb. Son 24 ildə ölkəmizdə Ümummilli liderimiz Heydər Əliyevin böyük uzaqgörənliklə işləyib hazırladığı yeni neft strategiyası uğurla reallaşdırılır. Ulu öndər yeni neft strategiyasında ölkəmizin reallıqlarını və imkanlarını əsas götürüb, ilk növbədə milli maraqlara istinad edib, müasir qlobal trendlərə əsasən respublikanın strateji inkişaf hədəflərini müəyyənləşdirib. Bu prinsiplər əsas götürülməklə reallaşdırılan yeni neft strategiyası müstəqillik illərində Azərbaycana regional və qlobal miqyasda böyük dividendlər qazandırıb, ölkəmizin iqtisadi gücünü, siyasi nüfuzunu əhəmiyyətli dərəcədə artırıb. Prezident İlham Əliyev cari il mayın 29-da Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimindəki nitqində xüsusi olaraq vurğulayıb ki, respublikanın malik olduğu zəngin karbohidrogen ehtiyatları yalnız müstəqillik illərində ölkəmizin inkişafına, milli maraqlara xidmət edib. **"Bu gün müstəqil Azərbaycan və bizim uğurlu neft-qaz siyasətimiz göstərir ki, ancaq müstəqillik şəraitində, müstəqillik dövründə Azərbaycan xalqı öz təbii ehtiyatlarından istifadə edə bilər, ancaq müstəqillik dövründə Azərbaycan uğurla inkişaf edə bilər. Bu gün biz müstəqil dövlət kimi ayaqda möhkəm dayanmışıq, ölkə qarşısında duran bütün vəzifələri uğurla icra edirik, belə nəhəng layihələri tərəfdaşlarımızla birlikdə icra edirik və Avropanın enerji xəritəsini yenidən tərtib edirik",** - deyə dövlət başçısı bildirib.

### "ƏSRİN MÜQAVİLƏSİ"NİN UĞURLA REALLAŞDIRILMASI SAYƏSİNDƏ AZƏRBAYCAN ÖZ İMKANLARINI ƏHƏMİYYƏTLİ DƏRƏCƏDƏ GENİŞLƏNDİRİB

Məlum olduğu kimi, müstəqilliyin ilk illərində ölkəmiz bütün sahələrdə çox ciddi problemlərlə üzləşmişdi. İqtisadi tənəzzül, getdikcə artan inflyasiya, kəskin maliyyə çatışmazlığı, insanlarda sabaha inamsızlıq, xaos, Ermənistanın havadarlarının köməyi ilə apardığı işğalçılıq siyasəti - o dövrdə respublikanın mənzərəsini səciyyələndirən bu kimi mənfi amillər hələ kövrək olan müstəqilliyimiz üçün ciddi təhdidlər yaradırdı. Ən acınacaqlı cəhət o idi ki, ölkədə inkişaf üçün heç bir perspektiv görünmürdü. Azərbaycanın ümumi iqtisadi və siyasi inkişafının təməlini qoyan "Əsrin müqaviləsi" məhz belə bir şəraitdə - 1994-cü il sentyabrın 20-də imzalandı. Mürəkkəb tarixi şəraitdə iri neft şirkətlərinin Xəzərin Azərbaycan sektorunda əməkdaşlığa cəlb olunması Ümummilli lider Heydər Əliyevin müstəsna xidməti idi. Ulu öndər Öz nüfuzu və ciddi əsaslandırmaları sayəsində xarici neft şirkətlərini Azərbaycanın zəngin neft yataqlarının işlənməsinə sərmayə qoyuluşunun perspektivlərinə inandıra bildi.

Beləliklə, Xəzərin Azərbaycan sektorunda yataqların işlənməsi istiqamətində geniş fəaliyyətə start verildi. Birinci növbədə 1995-ci ildə ilkin neft hasilatı layihəsi çərçivəsində "Çıraq-1" özülü Qərb standartlarına uyğun olaraq bərpa olundu. 1997-ci ildə isə "Çıraq" yatağından neft hasilatına başlandı. Bundan iki il sonra Azərbaycan "Əsrin müqaviləsi" çərçivəsində neftin hasilatından gəlir əldə etməyə başladı. Belə ki, 1999-cu ilin dekabrında Azərbaycanın "mənfəət nefti" ilə doldurulmuş ilk tanker dünya bazarlarına çıxarıldı.

Ölkəmizdə neft-qaz sənayesinin "Əsrin müqaviləsi" ilə başlayan sürətli inkişafı milli iqtisadiyyatımızın və bütövlükdə, ölkənin inkişafının əsas mənbəyi rolunda çıxış edib. "Əsrin müqaviləsi" və digər kontraktlar çərçivəsində ölkəmizə böyükhəcmli vəsaitlər daxil olub. Azərbaycanın xoşbəxtliyi ondadır ki, respublikamıza gələn neft gəlirlərindən səmərəli istifadə olunur. Belə ki, vəsaitlərin bir hissəsi ölkənin perspektiv inkişafı baxımdan zəruri olan iri infrastruktur layihələrinin icrasına, qaçqın və məcburi köçkün soydaşlarımızın mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına və digər belə məqsədlərə yönəldilir, digər qismi isə Dövlət Neft Fondunda toplanır. Hazırda Azərbaycan təxminən 44 milyard dollar həcmində strateji valyuta ehtiyatlarına malikdir ki, bu da kifayət qədər



böyük rəqəmdir. Prezident İlham Əliyev "Əsrin müqaviləsi"nin önəmini belə səciyyələndirib: **"Əsrin kontraktı" Azərbaycana nəfəs verdi, ölkəmizin canlanmasına xidmət göstərdi".**

Bu məqamda vurğulamaq yerinə düşər ki, ötən il Azərbaycanda iki milyard ton neft hasil edilməsi təntənəli şəkildə qeyd olundu. Bu həcmin 700 milyon tonu müstəqillik dövründə hasil edilib ki, onun da 460 milyon tondan çoxu konsorsiumun payına düşür.

Azərbaycan transmilli şirkətlərlə əməkdaşlığı perspektivdə də davam etdirəcək. 2017-ci il sentyabrın 14-də Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Saziş imzalanıb. Yeni Sazişin imzalanması ilə böyük ehtiyatlara malik "Azəri", "Çıraq", "Günəşli" yataqlarının işlənilməsində yeni mərhələ başlayıb.

Yeni Saziş çərçivəsində "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənilməsi 2050-ci ilə qədər uzadılıb. Sənədə əsasən, xarici investorlar tərəfindən ölkəmizə 3,6 milyard dollar həcmində bonus ödəniləcək və artıq prosesə başlanılıb. Bundan başqa, yeni Sazişə əsasən, SOCAR-ın payı 11,6 faizdən 25 faizə qaldırılıb və Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi 75 faiz təşkil edəcək.

### CƏNUB QAZ DƏHLİZİ AVROPANIN ENERJİ XƏRİTƏSİNİ YENİDƏN TƏRTİB EDƏN LAYİHƏDİR

Artıq bir neçə ildir ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Hazırda Avropa İttifaqı ölkələrinin bəziləri neftin 40 faizini respublikamızdan alır. Bununla belə, ölkəmiz Avropanın enerji təhlükəsizliyində daha fəal şəkildə iştirak etmək əzmindədir və bu məqsədlə öz potensialına əsaslanaraq müxtəlif təşəbbüslərlə çıxış edir. Gələcəkdə Avropanın enerji təhlükəsizliyində ölkəmizin rolunun daha da artacağı şəksizdir. Belə ki, Azərbaycanın fəal iştirakı ilə reallaşdırılan Cənub Qaz Dəhlizi Avropanın enerji xəritəsini tamamilə dəyişəcək. Yeni dəhliz Azərbaycanın Avropa İttifaqı ilə enerji təhlükəsizliyi sahəsində faydalı əməkdaşlıq əlaqələrinin daha geniş miqyasda inkişafı üçün etibarlı zəmin yaradır.

Xatırladaq ki, Azərbaycan qazının Avropa ölkələrinə çatdırılmasına hesablanan Cənub Qaz Dəhlizinin icrasına 4 il bundan əvvəl Bakıda başlanılıb. Arxada qalan 4 il ərzində layihənin bütün seqmentləri üzrə böyük iş həcmi yerinə yetirilib. Cari il mayın 29-da Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi keçirilib.

Bütövlükdə Cənub Qaz Dəhlizi 3600 kilometr məsafədə uzanacaq. On illər boyu davam edəcək layihənin yerinə yetirilməsinə böyük həcmlərdə sərmayə qoyuluşu nəzərdə tutulub. Layihənin icrası nəticəsində dünyanın ən mürəkkəb və ən zəngin qaz-kondensat yataqlarından biri olan "Şahdəniz" yatağının ehtiyatlarının işlənməsi təmin olunacaq. "Şahdəniz" yatağında hasilatın pay bölgüsü haqqında müqavilənin müddəti 2048-ci ilə qədər uzadılıb. Prezident İlham Əliyev Cənub Qaz Dəhlizini Avropanın nəhəng infrastruktur layihəsi kimi səciyyələndirərək deyib: **"Cənub Qaz Dəhlizi nəhəng infrastruktur layihəsidir. Bu layihənin icra edilməsinə 40 milyard dollardan çox sərmayə qoyulubdur və qoyulur. Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir. Əminəm ki, bundan böyük həcmdə resurslarımız var. Gələcək kəşfiyyat və istismar işləri, əminəm ki, bunu təsdiqləyəcək".**

Azərbaycanın müasir çağırışlar və reallıqlar nəzərə alınmaqla hazırlanan yeni neft strategiyasında enerji nəqli marşrutlarının şaxələndirilməsi əsas prioritetlərdən biri kimi müəyyənləşdirilib. Marşrutların şaxələndirilməsi bu gün Azərbaycanın müstəqil enerji siyasəti həyata keçirməsini şərtləndirən çox mühüm amil qismində çıxış edir. Eyni zamanda, mənbələrin və marşrutların şaxələndirilməsi Avropanın istehlakçı ölkələri üçün də strateji önəm daşıyır. Cənub Qaz Dəhlizi Avropa ölkələrinin enerji təminatında yeni imkanlar açaraq, qaz tədarükü mənbələrini şaxələndirməyə, yeni alternativ marşrutlardan istifadə etməyə imkan yaradacaq.

### ENERJİ LAYİHƏLƏRİNİN İCRASI ÇƏRÇİVƏSİNDƏ NÜMUNƏVİ REGİONAL VƏ QLOBAL ƏMƏKDAŞLIQ FORMATI YARANIB

Beynəlxalq əməkdaşlıq bəhs olunan enerji layihələrinin uğurla icra edilməsində əsas amillərdən biri qismində çıxış edib. Burada, ilk növbədə, regional əməkdaşlıq haqqında danışmaq lazım gəlir. Enerji layihələrinin icrası çərçivəsində Azərbaycanın, Türkiyənin və Gürcüstanın iştirakı ilə səmərəli regional əməkdaşlıq platforması yaranıb. Üç ölkənin birgə fəaliyyəti sayəsində regionun inkişafına güclü təkan verən Bakı-Tbilisi-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum enerji kəmərləri istifadəyə verilib. Cənub Qaz Dəhlizinin reallaşdırılmasında da üç ölkənin qarşılıqlı səyləri mühüm rol oynayır.

Enerji layihələrinin ərsəyə gəlməsində Amerika Birləşmiş Ştatları hökumətinin böyük köməyi olub. Ümumiyyətlə, ABŞ Azərbaycanın fəal iştirakı ilə reallaşdırılan əksər layihələrə həm siyasi, həm də mənəvi və maliyyə cəhətdən dəstək göstərib.

Böyük Britaniyanı təmsil edən BP şirkəti indiyədək Azərbaycanda reallaşdırılan enerji layihələrinin əsas investorlarından biri qismində çıxış edib. Eyni zamanda, irimiqyaslı enerji layihələrinin reallaşdırılmasında Böyük Britaniya hökuməti həmişə Azərbaycanın yanında olub. Bu əməkdaşlıq davam edir. Cari ildə Londonda Baş nazir xanım Meyin və Prezident İlham Əliyevin iştirakı ilə BP və SOCAR arasında növbəti enerji müqaviləsi imzalanıb. Bu, iki ölkə arasında strateji əlaqələrin yüksək səviyyədə olduğunu əks etdirir. Böyük Britaniya hökuməti Cənub Qaz Dəhlizinin həyata keçirilməsinə də öz dəstəyini göstərib.

Bu layihələrin həyata keçirilməsində maliyyə institutlarının böyük dəstəyini xüsusi qeyd etmək lazımdır. Onlar Azərbaycana inanır və öz maliyyə resurslarını ayırırlar.

Avropa İttifaqı ilə Azərbaycanın əməkdaşlıq formatında energetika sektoru çox böyük yer tutur. Cənub Qaz Dəhlizinin ərsəyə gəlməsində Avropa İttifaqı önəmli rol oynayıb. Hələ 2011-ci ildə Bakıda Avropa İttifaqı ilə Azərbaycan arasında Cənub Qaz Dəhlizi ilə bağlı Birgə Bəyannamə imzalanıb. Azərbaycanın və Avropa İttifaqının təşəbbüsü ilə son dörd il ərzində Bakıda hər il Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının iclasları keçirilir. 2015-ci ildən bu günə qədər Avropa İttifaqı bu toplantılarda ən yüksək səviyyədə təmsil olunur.

Xatırladaq ki, "Əsrin müqaviləsi"nə altı ölkəni təmsil edən 11 transmilli şirkət cəlb edilmişdi. Cənub Qaz Dəhlizinin icrasında isə yeddi ölkə iştirak edir. Bunlar Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliyadır. Eyni zamanda, üç Balkan ölkəsi - Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro perspektivdə layihəyə qoşulmaq niyyətlərini bildiriblər.

**Mübariz ABDULLAYEV**

# Milli Məclisdə Azərbaycan-Qırğızıstan ikitərəfli münasibətləri müzakirə olunub



Sentyabrın 20-də Milli Məclisin sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Qırğız Respublikası Joqorku Keneşin sədri Dastanbek Cumabekovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərlə bağlı müzakirələr aparılıb.

Oqtay Əsədov bildirib ki, Azərbaycan ilə Qırğızıstan arasındakı münasibətlər qədim tarixə malikdir. Hər iki ölkənin xalqları eyni kökə, mədəniyyətə, ənənələrə sahibdir. Ölkələrimiz arasında əlaqələr inkişaf edir. Dövlətlərimizin başçılarının qarşılıqlı səfərləri ikitərəfli əməkdaşlığın daha da genişlənməsinə şərait yaradır.

Joqorku Keneşin sədri Dastanbek Cumabekov göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib. O deyib ki, Qırğız Respublikası Azərbaycanla əlaqələrin inkişafında maraqlıdır.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

# Azərbaycan-Pakistan əlaqələrinin inkişaf perspektivləri müzakirə olunub



Sentyabrın 20-də Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov ölkəmizdə səfərdə olan Pakistan İslam Respublikası Senatının sədri Məhəmməd Sadiq Səncari ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Baş naziri Novruz Məmmədov Məhəmməd Sadiq Səncarini Pakistan Senatının sədri seçilməsi münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb. Azərbaycan-Pakistan münasibətlərindən danışan Novruz Məmmədov ölkələrimiz və xalqlarımız arasındakı əlaqələrin böyük tarixi köklərə malik olduğunu vurğulayaraq deyib: **"Pakistan Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. Ölkələrimiz arasında əlaqələr həm ikitərəfli, həm də çoxtərəfli formatlarda inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Əminəm ki, Sizin səfəriniz bu əlaqələrin inkişafına öz töhfəsini verəcək".**

Baş nazir Azərbaycan-Pakistan münasibətlərinin inkişafında parlamentlərarası əlaqələrin də mühüm rol oynadığını deyib. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunan Novruz Məmmədov bu məsələdə Azərbaycanın haqlı mövqeyini dəstəklədiyinə görə Pakistan tərəfinə minnətdarlığını ifadə edib.

Pakistan Senatının sədri Məhəmməd Sadiq Səncari Novruz Məmmədovu Baş nazir təyin edilməsi və Azərbaycan Parlamentinin 100 illiyi münasibətilə təbrik edib. O, Pakistanın Baş naziri İmran Xanın salamlarını Novruz Məmmədova çatdırıb. Pakistan ilə Azərbaycan arasında səmimi dostluq və qardaşlıq əlaqələrinin olduğunu vurğulayan Senatın sədri yüksək səviyyəli səfərlərin, görüşlərin bu münasibətlərin daha da inkişafına təkan verdiyini deyib. Məhəmməd Sadiq Səncari Azərbaycanın müstəqilliyini bərpa etməsindən ötən dövr ərzində Pakistan Prezidentinin, Baş nazirinin, Senat sədrinin ölkəmizə bir neçə dəfə səfər etdiklərini xatırladıb, həmin səfərlər zamanı keçirilən görüşlərin, aparılan müzakirələrin ikitərəfli əlaqələrin inkişafında xüsusi rol oynadığını bildirib.

Görüşdə ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılması, sərmayə qoyuluşu imkanları, habelə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# AMEA-nın prezidenti Akif Əlizadə Belarusda medalla təltif edilib

Minskdə Belarus Milli Elmlər Akademiyasının yaranmasının 90 illiyi və Beynəlxalq Elmlər Akademiyası Assosiasiyasının 25 illiyi münasibətilə beynəlxalq konqres keçirilib.

Azərbaycanın Belarusdakı səfirliyindən AZƏRTAC-a bildiriblər ki, beynəlxalq konqresdə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti akademik Akif Əlizadənin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib.

Beynəlxalq konqresin rəsmi açılış mərasimində Belarus Prezidenti Aleksandr Lukaşenkonun tədbir iştirakçılarına təbrik məktubu oxunub. Sonra AMEA-nın prezidenti Akif Əlizadə Azərbaycan Prezidenti İlham Əliyevin Beynəlxalq Elmlər Akademiyası Assosiasiyasının sədri V.Q.Qusakova təbrik məktubunu oxuyub.

Daha sonra A.Əlizadə məruzə ilə çıxış edərək Beynəlxalq Elmlər Akademiyası Assosiasiyası ilə əməkdaşlığın əhəmiyyətindən danışıb.

Elmi məruzələrdən sonra tədbir iştirakçıları Belarus Milli Elmlər Akademiyasının yaranmasının 90 illiyi ilə bağlı təsis edilən medallarla təltif ediliblər. Medal alanlar sırasında Akif Əlizadə və AMEA-nın vitse-prezidenti İbrahim Quliyev də olub.

Beynəlxalq konqresdə Azərbaycanın Belarusdakı səfirliyinin müşaviri Zülfüqar Tanarverdi də iştirak edib.



# Rouz Qotemöller: Azərbaycan terrorizmə qarşı mübarizədə qətiyyətli mövqe sərgiləyir

**"Azərbaycan terrorizmə qarşı mübarizədə qətiyyətli mövqe sərgiləyir və NATO-nun səylərini dəstəkləyir. NATO Azərbaycanın terrorizmlə mübarizədə rolunu yüksək qiymətləndirir".**

AZƏRTAC xəbər verir ki, bu fikri jurnalistlərə müsahibəsində NATO baş katibinin müavini xanım Rouz Qotemöller deyib.

Baş katibin müavini bu il iyulun 12-də Azərbaycan Prezidenti İlham Əliyevin NATO-nun Əfqanıstanda Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşünün önəmini qeyd edib.

Rouz Qotemöller Azərbaycanın NATO ilə sıx əməkdaşlığının olduğunu vurğulayıb. O əlavə edib ki, Azərbaycan NATO-nun Əfqanıstandakı sülhməramlı missiyasına töhfə verir. **"Biz bir çox layihələr üzərində işləyirik və bu layihələr Azərbaycanın maraqlarına xidmət edir",** - deyə o əlavə edib.

# ƏQİDƏSİNƏ SADİQ ZİYALI

*Bütün dövrlərdə vətənpərvər, ziyalı insanlar olub və belə insanlar hər zaman ictimai fəallığı ilə cəmiyyətin ön sıralarında gediblər. Tanınmış ictimai-siyasi xadim, Milli Məclisin sabiq sədri, Əməkdar hüquqşünas Murtuz Ələsgərovun haqqında düşünəndə, ilk növbədə, yada bu sözlər düşür. Bəli, ziyalılıq və fəal vətəndaş mövqeyi Murtuz Ələsgərovun portretini tamamlayan əsas cəhətlər idi. Sentyabrın 20-də Murtuz Ələsgərovun anadan olmasının 90 ili tamam oldu. Uzun illər ərzində ardıcıl mütaliə sayəsində zəngin elmi biliklərə yiyələnən və kifayət qədər geniş erudisiyaya malik olan Murtuz Ələsgərov eyni dərəcədə fəal vətəndaş mövqeyi sərgiləyən, Vətənə olan sonsuz məhəbbətini əməldə bürüzə verən, cəmiyyətdə gedən proseslərə heç vaxt biganə qalmayan bir insan idi.*

*Mən Murtuz müəllimi ötən əsrin 70-ci illərinin sonu, 80-ci illərinin əvvəllərində radio və televiziya efirlərində beynəlxalq məsələlərə dair icmalları aparırkən tanımışam. Onun dünya miqyasında baş verən prosesləri özünəməxsus, geniş auditoriya tərəfindən başa düşülən şəkildə izah etməsi dinləyiciləri və tamaşaçıları özünə cəlb edirdi. Murtuz müəllim çox mürəkkəb, dərin köklərə malik beynəlxalq hadisələri sadə dillə elə izah edirdi ki, ona qulaq asmamaq mümkün deyildi.*





**Eldar İBRAHİMOV,**
**Milli Məclisin Aqrar siyasət komitəsinin sədri**

Murtuz müəllimlə əyani tanışlığım 90-cı illərin əvvəllərinə təsadüf edir. O dövrdə çökməkdə olan Sovet imperiyası digər müttəfiq respublikalarda olduğu kimi, Azərbaycanda da özünün son dayaqlarını qoruyub saxlamaq üçün dərindən-qabıqdan çıxır, Moskvanın yeritdiyi siyasəti heç cür qəbul etmək istəməyən dinc əhaliyə qarşı müxtəlif təxribatlar törədirdi. Belə bir vaxtda ölkədə xalq hərəkatı geniş vüsət almağa başladı. Murtuz müəllim də bu hərəkatın fəal üzvlərindən biri kimi mitinqlərdə iştirak edir, tez-tez tribunadan nitq söyləyir, fikirlərini səsləndirirdi.

O dövrdə Ulu öndər Heydər Əliyevə qarşı respublika rəhbərliyi çirkin kampaniya aparır, müxtəlif vasitələrlə Onu xalqın gözündən salmağa çalışırdı. Həmin vaxt respublikaya rəhbərlik edənlər belə bir görkəmli dövlət xadimini yenidən hakimiyyətə buraxmamaq üçün min bir hiylə işlədirdilər. Məhz bu məqsədlə də respublika Konstitusiyasına dəyişiklik edilərək yaş senzi ilə bağlı maddə əlavə edilmişdi. O zaman görkəmli dövlət xadimi Heydər Əliyev keçmiş SSRİ rəhbərliyindən istefa verərək, Öz doğma vətəni Azərbaycana - Naxçıvana qayıtmışdı.

Ulu öndər Heydər Əliyevin xalq arasındakı nüfuzu, Ona olan inam o dövrkü siyasi qüvvələri çox narahat edirdi. Belə bir vaxtda Murtuz müəllim yaş senzinin ləğv olunması ilə bağlı mitinqlərdə cəsarətlə çıxış edərək, heç nədən çəkinmədən Ulu öndər Heydər Əliyevin hüquqlarını müdafiə edirdi.

1992-ci ilin mayında Xalq Cəbhəsi Mütəllibov hakimiyyətini devirərək, ölkənin Ali Soveti sədrliyinə öz namizədini seçmək istəyirdi. Parlamentin deputatı kimi mən digər deputat həmkarlarımla birlikdə Heydər Əliyevlə əlaqə saxlayıb, Onu Bakıya dəvət etmək istəyirdik. Ancaq Naxçıvanla telefon əlaqəsinin müəmmalı şəkildə kəsilməsi Onunla əlaqə yaratmağa mane oldu.

Yaxşı yadımdadır, sonralar biz - Heydər Əliyevi sevən insanlar - Fərəməz Maqsudov, Murtuz Ələsgərov və başqaları bu görkəmli dövlət xadiminin rəhbərliyi ilə yeni bir partiyanın yaradılması barədə ciddi düşünməyə başladıq. Bakı Dövlət Universitetində Murtuz müəllimin kabinetində dəfələrlə yığışaraq, bu barədə fikirlərimizi bölüşür, görüləcək işləri müzakirə edirdik. O vaxt belə qərara alındı ki, partiya yaradılması ilə bağlı Ulu öndərə müraciət edək. Beləliklə, 1992-ci il oktyabrın 16-da "Səs" qəzetində Ulu öndər Heydər Əliyevə ünvanlanmış "Azərbaycan Sizin sözünüzü gözləyir" adlı "91-lər"in müraciəti dərc olundu. Bu müraciət ölkənin ictimai-siyasi həyatında əlamətdar bir hadisəyə çevrildi. Hamı - ölkə ziyalıları, sadə zəhmətkeş adamlar nəzərlərini Naxçıvana dikmişdilər. Onlar Heydər Əliyevdən cavab gözləyirdilər.

Xalq Cəbhəsinin hakimiyyəti dövründə ölkədə baş alıb gedən anarxiya, cəzasızlıq mühiti, gələcəyə inamsızlıq, torpaqların dalbadal işğalı bütün ölkə əhalisini narahat edirdi. Belə bir vaxtda Xalq Cəbhəsi hakimiyyəti Heydər Əliyevin ətrafında birləşmək istəyənlərə təzyiqlərini daha da artırmışdı. Hətta Ulu öndərə müraciət ərəfəsində Murtuz müəllimə qarşı təxribat törədilmiş, bu görkəmli ziyalı fiziki təzyiqlərə məruz qalmışdı.

"91-lər"in müraciəti o dövrkü hakimiyyəti şoka salmışdı. Onlar nə edəcəklərini bilmir, bir-birinin ardınca xalqda ikrah doğuracaq addımlar atırdılar. Həmin vaxt Naxçıvanda Ali Məclisin Sədri işləyən Heydər Əliyevi tutduğu vəzifədən kənarlaşdırmaq üçün Ona qarşı çevriliş cəhdinə əl atıldı. Ancaq xalq öz böyük oğlunu müdafiə etdi. Naxçıvanın ətraf kəndlərindən Ali Məclisin qarşısına toplanan əhali Xalq Cəbhəsi iqtidarının çirkin niyyətlərinin baş tutmasına imkan vermədi. Və 1992-ci ilin noyabrında Naxçıvan Dram Teatrında Yeni Azərbaycan Partiyasının (YAP) təsis konfransı keçirildi. Bu partiya yeganə siyasi qurum idi ki, ölkənin paytaxtında yox, ucqar bir bölgədə yaradıldı.

Ölkədə baş verən mürəkkəb siyasi proseslər fonunda Heydər Əliyevin başçılığı ilə Yeni Azərbaycan Partiyası (YAP) tezliklə müxalifət partiyasından iqtidar partiyasına çevrildi. 1993-cü ilin iyununda Ulu öndərin hakimiyyətə yenidən qayıdışı ilə Azərbaycan onu gözləyən bəlalardan tezliklə xilas oldu. 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olundu. Milli Məclisə ilk seçkilər keçirildi. Tezliklə hüquqi islahatların aparılması üzrə komissiya yaradıldı. Xüsusi vurğulamaq istəyirəm ki, ölkənin əsas sənədi - Konstitusiyanın hazırlanmasında və yeni qanunvericilik aktlarının qəbulunda Murtuz müəllimin təcrübəli hüquqşünas kimi böyük əməyi olmuşdur.

Yaxşı yadımdadır, 1996-cı ilin payızı idi. Milli Məclisin sədrliyinə seçki keçirilməliydi və partiyamız bu posta hörmətli Murtuz Ələsgərovun namizədliyini dəstəkləyirdi. O dövrdə Heydər Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası parlamentdə çoxluq təşkil edirdi və təbii ki, partiyanın namizədinin də parlamentin sədri seçilmək imkanı daha çox idi.

Milli Məclisin təşkilati məsələ ilə əlaqədar növbəti iclasında Heydər Əliyev Özü də iştirak edirdi. Bu, Ulu öndərin Murtuz müəllimə olan etimadının bariz göstəricisi idi. Həmin iclasda Murtuz Ələsgərov Milli Məclisin sədri seçildi.

O dövrdə komitə sədri kimi deyə bilərəm ki, Murtuz müəllimin qanunverici orqana sədr seçilməsi parlamentin işinə yeni ab-hava gətirdi. Ulu öndərin rəhbərliyi ilə ölkədə aparılan islahatların Milli Məclisdə hüquqi bazasının yaradılması ilə yanaşı, aqrar sahəyə aid də həyati əhəmiyyətli qanunlar qəbul olundu. Parlamentin beynəlxalq əlaqələri daha da gücləndi. Qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması istiqamətində əməli addımlar atıldı. Ölkəmiz tezliklə Avropa Şurasına tam hüquqlu üzv kimi qəbul olundu.

1990-cı illərin sonlarında Qafqazda baş verən proseslər dünya ictimaiyyətinin diqqətini özünə cəlb edirdi. Belə bir vaxtda Rusiyanın təşəbbüsü ilə Qafqaz ölkələri parlament sədrlərinin görüşləri təşkil edildi. Yaxşı yadımdadır, belə görüşlərdən biri də Rusiyanın Stavropol vilayətinin Kislovodsk şəhərində baş tutmuşdu. O vaxt mən Minvodı şəhərinin rəhbəri Mixaylenko Vitaliy İvanoviçdən xahiş etdim ki, tədbir çərçivəsində Rusiya tərəfdən Murtuz müəllimi o müşayiət etsin. Tezliklə Murtuz müəllimlə şəhərin meri arasında dostluq əlaqələri yarandı.

Rusiya Dövlət Dumasında Murtuz müəllimin rəhbərliyi ilə keçirilən görüşlər də yaxşı xatirimdədir. O vaxt o, rusiyalı deputatların Dağlıq Qarabağa icazəsiz səfərləri ilə bağlı qəti etirazını bildirirdi. Onun müsahibləri bu ağsaqqal hüquqşünasa, ictimai xadimə diqqətlə qulaq asır, iradlarını qəbul edirdilər.

Rusiya Dövlət Dumasının 90 illiyi ilə əlaqədar Sankt-Peterburqun Tavriya sarayında keçirilən tədbir zamanı burada azərbaycanlı deputatların o dövrkü Rusiya Dumasında iştirakı ilə bağlı fotosərgi təşkil edilmişdi. Rusiya Federal Şurası Federal Məclisinin Şura sədri Yeqor Stroyev sərgidən məmnun olduğunu dilə gətirərək, XX əsrin əvvəllərində azərbaycanlıların Rusiyanın ictimai-siyasi həyatındakı iştirakını yüksək qiymətləndirdi. Ermənilər buna qısqanclıqla yanaşaraq, onların da Dumada fəal olduqlarını bildirdilər. Murtuz müəllim isə təmkinini pozmadan, "ola bilər, yəqin, Dumanın bufetində fəallıq göstəriblər", - deyə cavab verdi. O dövrdə İrəvan quberniyasından Dumaya təkcə azərbaycanlılar seçilmişdilər.

Murtuz müəllim güclü yumor hissinə malik olmaqla yanaşı, həm də yaxşı yol yoldaşı idi. O, xalq arasında deyildiyi kimi, hər kəslə öz dilində danışmağı bacarırdı. Heç vaxt haqqı nahaqa vermədi. Moskvaya səfərlərin birində Murtuz müəllimlə tək qalmışdıq. O, keçmişdən, gələcəkdən şirin-şirin söhbət edir, mənimlə birgə qaldığımız mehmanxananın həyətində var-gəl edirdi. Ayağında problem olduğu üçün çox da uzağa gedə bilmirdi. Belə gəzintilərin birində su içmək istədik. O, suyu stəkana süzərək, mənə uzatdı. Etiraz etmək istəyəndə isə dedi ki, su kiçiyindir, yol böyüyün.

Murtuz müəllim həm gözəl hüquqşünas, həm də dünya tarixinə dərindən bələd olan dəyərli ziyalı idi. O, dünyada baş verən proseslərdən düzgün nəticə çıxarmağı bacaran təcrübəli siyasətçi idi. Heç də təsadüfi deyildir ki, müstəqilliyimizin möhkəmləndirilməsi üçün önəmli olan illərdə məhz Murtuz müəllim Milli Məclisə rəhbərlik etmişdi. Onun əziz xatirəsi əqidəsinə sadiq ziyalı, gözəl insan, ictimai-siyasi xadim kimi Murtuz müəllimi sevənlərin yaddaşında daim yaşayacaqdır!

# Ceyrançöl layihəsi üzrə ümumilikdə 6600 hektar ərazi təmizlənərək 18 mindən çox partlamamış hərbi sursat zərərsizləşdirilib

Ceyrançöl layihəsi üzrə ümumilikdə 6600 hektar ərazi təmizlənərək 18 mindən çox partlamamış hərbi sursat zərərsizləşdirilib.

AZƏRTAC xəbər verir ki, bu fikir sentyabrın 20-də Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik ilə NATO-nun Dəstək və Təchizat Agentliyinin (NSPA) Sülh Naminə Tərəfdaşlıq Etimad Fondunun birgə həyata keçirdiyi "Ceyrançöl ərazisinin mina və partlamamış hərbi sursatlardan təmizlənməsi" birgə layihəsinin bağlanış mərasimində səsləndirilib.



Tədbir iştirakçıları əvvəlcə ANAMA-nın fəaliyyətini əks etdirən stendlərə baxıb, həmçinin mina və partlamamış hərbi sursatın zərərsizləşdirilməsində istifadə edilən texnika və avadanlıqla tanış olublar.



Azərbaycan Respublikası Prezidentinin Hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov tədbirdə çıxış edərək layihənin uğurla başa çatdırılmasında əməyi olmuş hər kəsi, xüsusilə ona hərtərəfli dəstək vermiş NATO rəsmilərini təbrik edib.

Prezidentin köməkçisi qeyd edib ki, bu yaxınlarda 20 illik yubileyini qeyd etdiyimiz ANAMA 1998-ci il iyulun 18-də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Sərəncamı ilə yaradılıb, işğaldan azad edilmiş ərazilərin mina və partlamamış hərbi sursatlardan təmizlənməsi və bununla dinc əhalinin öz doğma torpaqlarında tam təhlükəsiz şəraitdə yaşamasının təmin edilməsi onun əsas vəzifəsi kimi müəyyənləşdirilib. Fəaliyyət göstərdiyi 20 il ərzində Agentlik qarşısına qoyulmuş vəzifənin öhdəsindən uğurla gəlib, ümumilikdə 53 min hektardan çox ərazini mina və partlamamış hərbi sursatdan təmizləyib, bunun da nəticəsində məcburi köçkünlərin bir hissəsi öz yurdlarına qayıdıb. Hazırda ANAMA yüksək peşəkar kadr potensialına və müasir maddi-texniki bazaya malikdir. Agentliyin yalnız Azərbaycan ərazisində deyil, başqa dövlətlərin ərazilərində də əməliyyatlara cəlb edilməsi onun fəaliyyətinə verilən yüksək qiymətin göstəricisidir. O, bir çox beynəlxalq təşkilatlar, eləcə də ayrı-ayrı dövlətlərin müvafiq strukturları ilə səmərəli əməkdaşlıq qurub.

Fuad Ələsgərov bildirib ki, ANAMA-nın NATO-nun Dəstək və Təchizat Agentliyi ilə əməkdaşlığı xüsusi olaraq vurğulanmalıdır. İki təşkilatın 2005-ci ildən başlayaraq həyata keçirdiyi "Saloğlu" layihəsi çərçivəsində 6 il ərzində 568 hektar ərazi minalardan təmizlənib. Digər uğurlu birgə layihə isə Ceyrançöl layihəsi olub. Keçmiş SSRİ-nin Qafqaz regionundakı qoşunlarının hərbi təlim poliqonu olmuş bu ərazidə xeyli miqdarda mina, tank və artilleriya mərmiləri, aviasiya bombaları və digər partlamamış hərbi sursatlar aşkarlanıb. Bu ərazi Azərbaycanda mina və sursatların ən böyük təhlükə doğurduğu yerlərdən biri idi. 2012-ci ildən başlayaraq 3 mərhələdə həyata keçirilmiş Ceyrançöl layihəsi üzrə ümumilikdə 6600 hektar ərazi təmizlənərək 18 mindən çox partlamamış hərbi sursat zərərsizləşdirilib. Layihənin maliyyələşdirilməsində Azərbaycan Hökuməti ilə yanaşı, bir sıra digər ölkələr donor qismində çıxış ediblər. Fuad Ələsgərov layihədə iştirak etmiş bütün donor ölkələrə, eləcə də maliyyə vəsaitinin yığılması, donor ölkələrlə əlaqələndirilmənin aparılmasında göstərdiyi köməyə görə NATO-nun Dəstək və Təchizat Agentliyinə Azərbaycan Hökuməti adından təşəkkür edib.

Prezidentin köməkçisi deyib ki, ərazilərin minalardan təmizlənməsi humanist missiyadır və bu şərəfli missiyanı həyata keçirənlər çox vaxt öz həyat və sağlamlıqlarını belə təhlükə altına atırlar. Ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Azərbaycan üçün minalardan təmizləmə fəaliyyəti böyük əhəmiyyət kəsb edir və buna görə də ölkə rəhbərliyi tərəfindən ANAMA-ya, onun maddi-texniki təchizatının gücləndirilməsinə xüsusi diqqət ayrılır. Əminik ki, ANAMA-nın xarici tərəfdaşlarla, o cümlədən NATO-nun müvafiq strukturları ilə qurduğu səmərəli əməkdaşlıq bundan sonra da uğurla davam etdiriləcək.

ANAMA-nın direktoru Qəzənfər Əhmədov Agentliyin Azərbaycanda mina və partlamamış hərbi sursatın zərərsizləşdirilməsi sahəsində gördüyü işlərdən, həyata keçirdiyi layihələrdən danışıb. Bildirib ki, Azərbaycan Hökuməti ilə respublikamızda minalara qarşı mübarizə işini dəstəkləyən donor ölkələrin və təşkilatların birgə səyləri, Azərbaycanda əl ilə minatəmizləmə və partlamamış hərbi sursatların zərərsizləşdirilməsi üzrə qruplar, minaaxtaran itlər, mexaniki minatəmizləmə maşınları nəinki əməliyyatların operativ idarə edilməsini, həm də beynəlxalq ekspertləri cəlb etməklə çoxsaylı təlimlər vasitəsilə təkmilləşməni mümkün edən bütün zəruri infrastruktura malik regional bazalardan ibarət güclü və dayanıqlı minatəmizləmə potensialı yaratmağa imkan verib. Agentliyin iş təmpinin dayanıqlı olması və mina təhlükəsi ilə mübarizə proqramının gələcəkdə də inkişafı və səmərəli işləməsi üçün şəraitin yaradılması bu sahəyə şəxsən Prezident İlham Əliyevin daimi diqqət və qayğısı sayəsində mümkün olub.

Bildirilib ki, ölkəmizin NATO ilə əməkdaşlığı çərçivəsində Azərbaycan Hökumətinin sifarişi əsasında sovet ordusunun tərk etdiyi hərbi bazalarda minatəmizləmə işləri aparılır. Azərbaycan-Gürcüstan sərhədi boyunca ölkənin şimal-qərb hissəsində yerləşən Ceyrançöl ərazisi 1955-1991-ci illər ərzində keçmiş sovet hərbi ordusunun sınaq və təlim ərazisi kimi intensiv surətdə istifadə edilib. Ceyrançöl ərazisinin ümumi sahəsi 65 kvadratkilometrdən çoxdur.

2012-ci ildə başlanılan "Ceyrançöl təmizləmə layihəsi"nin birinci mərhələsində 28 ay ərzində 19 milyon kvadratmetr ərazi tam təmizlənib və 14 mindən çox partlamamış hərbi sursat və 173 mina tapılaraq zərərsizləşdirilib. Layihənin ikinci mərhələsinə 2014-cü ilin iyulunda başlanılıb və 29 ay müddətində 25,3 milyon kvadratmetr sahə təmizlənib, 1553 partlamamış hərbi sursat zərərsizləşdirilib. Üçüncü mərhələ ötən ilin yanvarında başlayıb və 18 ay müddətində 22 milyon kvadratmetrə yaxın ərazi təmizlənib, 2146 mina və partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Diqqətə çatdırılıb ki, layihənin ilk iki mərhələsində aparıcı ölkə rolunu ABŞ, sonuncu mərhələsində isə Türkiyə öz üzərinə götürüb. Azərbaycan Hökuməti layihənin ölkə üçün əhəmiyyətini nəzərə alaraq onun ümumi dəyərinin əlli faizi həcmində maliyyə vəsaiti ayırıb.

Layihənin birinci mərhələsi üçün 3,1 milyon, ikinci mərhələsi üçün isə 1,8 milyon avro, üçüncü mərhələsinə 1,1 milyon avro vəsait olmaqla, ümumilikdə təxminən 6 milyon avro məbləğində vəsait ayrılıb.

Qeyd edilib ki, Ceyrançöl layihəsi ANAMA ilə NSPA Sülh Naminə Tərəfdaşlıq Etimad Fondu arasında imzalanmış müqaviləyə əsasən həyata keçirilir və NATO tərəfindən dəstəklənir. Bu, ANAMA-NATO əməkdaşlığı çərçivəsində həyata keçirilən minatəmizləmə layihəsidir.

Minatəmizləmə əməliyyatlarından başqa, ANAMA 15 ildən artıqdır ki, Azərbaycan Hökuməti və NATO-nun müstəsna mürəkkəbliyə malik birgə layihələri çərçivəsində Ağstafa rayonu ərazisində partlamamış hərbi sursatların təmizlənməsi və zərərsizləşdirilməsi üzrə əməliyyatlar aparır.

Agentliyin əsas hədəfi gələcəkdə işğal altında olan torpaqlar azad edildikdən sonra Agentlik tərəfindən həmin ərazilərin qısa müddət ərzində mina və partlamamış hərbi sursatlardan təmizlənərək yerli icra strukturlarına təhlükəsiz şəkildə təhvil verilməsi və öz torpaqlarından qaçqın və məcburi köçkün düşmüş vətəndaşların doğma yurdlarına qayıtması və həmin ərazilərdə yaşayış, kənd təsərrüfatı və müxtəlif sahələrin yenidən bərpa olunmasına yönəlib.

Tədbirdə NATO baş katibinin müavini xanım Rouz Qotemöller layihənin uğurla reallaşdırılmasına görə Azərbaycan Hökumətinə minnətdarlıq edib. O, ANAMA-nın beynəlxalq layihələrdə uğurla iştirakını vurğulayıb. NATO baş katibinin müavini Azərbaycanla gələcəkdə də bu sahədə əməkdaşlığa hazır olduqlarını deyib.

NATO-nun Dəstək və Təchizat Agentliyinin əməliyyatlara dəstək üzrə direktor müavini Allan Makleod layihənin uğurla başa çatmasına görə təbriklərini çatdırıb. O, bu layihənin icrasının çox vacib olduğunu qeyd edib. Direktor müavini ANAMA-nın artıq regional səviyyədə ekspert kimi çıxış etdiyini vurğulayıb.

Sonra ANAMA-nın əməliyyat üzrə meneceri Samir Poladov Ceyrançöl təmizləmə layihəsinin təqdimatını edib.

Daha sonra Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral, ABŞ-ın Azərbaycandakı müvəqqəti işlər üzrə vəkili Villiam Gill, Macarıstanın Azərbaycandakı səfiri Viktor Szederkenyi, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi və İnkişaf Proqramının rezident nümayəndəsi Qulam İshaqzai çıxış edərək layihənin əhəmiyyətindən danışıblar. Onlar Azərbaycanın mina və partlamamış hərbi sursatın zərərsizləşdirilməsi sahəsində gördüyü işləri yüksək qiymətləndiriblər.

# Heydər Əliyev Fondu və BP birgə layihələrin icrasına dair əməkdaşlıq memorandumu imzalayıb



Sentyabrın 20-də Heydər Əliyev Fondu və BP Azərbaycan şirkəti arasında əməkdaşlıq memorandumu imzalanıb.

AZƏRTAC xəbər verir ki, imzalanma mərasimində Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov və BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz iştirak edib.

Heydər Əliyev Fondu və BP Azərbaycan şirkəti arasında keçirilən görüşdə Azərbaycanda reallaşdırılacaq layihələr, o cümlədən sosial, mədəniyyət, idman, təhsil, elm və texnika, ekologiya sahələrində əməkdaşlıq imkanları müzakirə olunub.

Anar Ələkbərov 2004-cü ildən fəaliyyət göstərən Heydər Əliyev Fondunun sosial-iqtisadi, mədəni sahələrdəki dövlət siyasətinə dəstəyi, vətəndaş cəmiyyətinin formalaşmasına verdiyi töhfə barədə danışıb. Fondun artıq beynəlxalq səviyyədəki fəaliyyətinin ölkələr və vətəndaşların həyatında, eyni zamanda, ikitərəfli əlaqələrin genişlənməsində əhəmiyyətli rol oynadığını qeyd edib. Bu layihələr sırasında Bosniya və Herseqovinada Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunmuş Təcili Tibbi Yardım Mərkəzinin bu günlərdə açılışını, Macarıstanda reallaşdırılan layihələri, bir neçə gün sonra Vatikanda katakombaların bərpası ilə bağlı orada təqdimat keçiriləcəyini diqqətə çatdırıb. Eyni zamanda, Fond tərəfindən ən böyük layihələr sırasında "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", Talassemiya Mərkəzinin inşası, daun sindromlu və xüsusi qayğıya ehtiyacı olan şəxslər, valideyn himayəsindən məhrum olan uşaqlarla bağlı, mədəniyyət və tariximizin tanıdılması üzrə layihələrin uğurla həyata keçirildiyini bildirib. **"Bu gün Heydər Əliyev Fondu və BP şirkəti arasında əməkdaşlıq memorandumunun imzalanmasının 24 il əvvəl 20 sentyabr tarixində "Əsrin müqaviləsi"nin imzalandığı günə təsadüf etməsi də rəmzi məna daşıyır. BP-nin Azərbaycanda iri neft layihələri çərçivəsində başlanan fəaliyyətinin hazırda ölkəmizdə humanitar sahədə genişlənməsi və regionun ən böyük qeyri-hökumət təşkilatı olan Heydər Əliyev Fondu ilə imzalanan memorandum üzrə də əməkdaşlığın davam etməsi sevindirici haldır. Ümid edirəm ki, Fond və BP arasında imzalanan memorandum təkcə Bakıda deyil, bizim regionlardakı layihələrimiz üzrə də uğurla həyata keçiriləcək",** - deyə Anar Ələkbərov qeyd edib.




## BP ŞİRKƏTİ AZƏRBAYCANDA İŞLƏMƏSİNDƏN QÜRUR DUYUR

Çoxdan bəri Heydər Əliyev Mərkəzinə gəlmək arzusunda olduğunu vurğulayan Qəri Counz deyib: **"Belə bir gündə - Azərbaycan Neftçiləri Günündə və bizim Azərbaycanla ilk müqaviləmiz olan "Əsrin müqaviləsinin" 24-cü ildönümü günündə əməkdaşlıq memorandumunun imzalanmasından çox məmnunuq. BP Azərbaycanda işləməsindən qürur duyur. İlk müqaviləmiz imzalandığı vaxtdan etibarən BP şirkəti Azərbaycanın cəsur neftçiləri ilə çiyin-çiyinə bu ölkənin neft sənayesində çalışır".**

Qəri Counz qeyd edib ki, təmsil etdiyi şirkət Azərbaycanda fəaliyyət göstərdiyi bu illər ərzində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin uzaqgörənliklə irəli sürdüyü planların uğurla həyata keçməsinin şahidi olub. Belə ki, bu strateji planlar ölkənin mənafeyi və gələcəyi naminə məharətlə həyata keçirilir. Bu cür uğurlu planların əsasında təhsilin, mədəniyyətin inkişafı və insanların qayğısına qalmaq kimi amillərin dayandığını qeyd edən Qəri Couns bu baxımdan Heydər Əliyev Fondunun fəaliyyətini yüksək qiymətləndirib.

## QƏRİ COUNZ: HEYDƏR ƏLİYEV FONDUNUN GÖRDÜYÜ İŞLƏR ÖLKƏNİN GƏLƏCƏYİNƏ ƏVƏZSİZ TÖHFƏDİR

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz bildirib: **"BP şirkəti Azərbaycanın parlaq dayanıqlı gələcəyinin qurulmasına yardım etmək səylərimizə qoşulmaq imkanı verən bu memorandumun imzalanmasını yüksək qiymətləndirir. Hesab edirik ki, Heydər Əliyev Fondunun gördüyü işlər ölkənin gələcəyinə əvəzsiz töhfədir. Fondun mədəniyyət, təhsil, sosial və ətraf mühit sahələrində gördüyü işlər həm ölkədə, həm də beynəlxalq miqyasda yüksək qiymətləndirilir. Azərbaycandakı fəaliyyətimizin ötən 26 ili ərzində biz də təhsilin inkişafı, icmalarda bacarıqların yaradılması, yerli kiçik və orta sahibkarlığın gücləndirilməsi, ölkədə idmanın inkişafı və mədəni irsin təbliğinə dəstək vermək üçün əlimizdən gələn səyləri əsirgəməmişik. Ümid edirik ki, imzalanan memorandum uzunmüddətli etibarlı tərəfdaş olaraq bu möhtəşəm ölkə üçün birlikdə daha çox töhfə verməyimizə imkan yaradacaq".**

## MEMORANDUMUN HƏDƏFLƏRİ - AZƏRBAYCANDA TƏHSİL, MƏDƏNİYYƏT, SƏHİYYƏ VƏ DİGƏR SAHƏLƏRDƏ BİRGƏ LAYİHƏLƏRİN İCRASI

Qeyd edək ki, əməkdaşlıq memorandumu Bakı-Tbilisi-Ceyhan neft kəmərinin və Cənubi Qafqaz Boru Kəmərinin Azərbaycan ərazisində əhatə etdiyi bölgələr üzrə təhsil, mədəniyyət, səhiyyə və digər sahələrdə birgə maraq doğuran layihələrin icrasını nəzərdə tutur. Bu layihələr müxtəlif infrastrukturun, o cümlədən məktəb binalarının tikintisi və bərpası, mədəni-tarixi irsin bərpası və qorunması, kiçik və orta sahibkarlığın inkişafına dəstək xarakteri daşıyacaq. Eyni zamanda, ekologiya, idman, sosial və təhsil sahələrində, həmçinin regionlarda gənclər arasında müxtəlif peşə sənətinin və startapların inkişafı, uşaq və yeniyetmələrin maariflləndirilməsi, valideyn himayəsindən məhrum olan uşaqlar üzrə birgə layihələr icra olunacaq.

Qonaqlar, həmçinin Mərkəzdəki Heydər Əliyev Muzeyi və sərgi zalları ilə tanış olublar. Heydər Əliyev Mərkəzinin binasının memarlıq nümunəsi olmaqla yanaşı, burada maraqlı layihələrin təqdim edilməsi qonaqlarda böyük maraq doğurub.

# Bir sıra ölkələrin parlament rəhbərləri Azərbaycana səfərə gəliblər





Sentyabrın 20-də bir sıra ölkələrin parlament rəhbərləri - Türkiyə Böyük Millət Məclisinin sədri Binəli Yıldırım, Bəhreyn Şurasının sədri Əhməd bin İbrahim Əl-Mulla, Sudan Milli Assambleyasının sədri İbrahim Əhməd Ömər, Belarus Nümayəndələr Palatasının sədri Vladimir Andreyçenko və ATƏT Parlament Assambleyasının sədri George Tsereteli Azərbaycana səfərə gəliblər.

AZƏRTAC xəbər verir ki, səfərin məqsədi Azərbaycan parlamentinin 100 illiyi münasibətilə keçiriləcək təntənəli iclasda iştirak etməkdir.

Azərbaycanın və adları qeyd olunan ölkələrin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda parlament rəhbərlərini Milli Məclis sədrinin müavinləri Valeh Ələsgərov, Bahar Muradova və digər rəsmi şəxslər qarşılayıblar.

# Fəxri xiyabanda görkəmli alim Rəfiqə Əliyevanın xatirəsi anılıb

Sentyabrın 20-də Fəxri xiyabanda görkəmli kimyaçı alim, Bakı Dövlət Universitetinin ekoloji kimya və ətraf mühitin mühafizəsi elmi-tədqiqat laboratoriyasının yaradıcısı, Əməkdar elm xadimi, "Şöhrət" ordenli Rəfiqə Əliyevanın qəbirüstü abidə kompleksi önündə alimin anadan olmasının 86 illiyinə həsr edilən tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə görkəmli alimin ailə üzvləri, elm adamları, dövlət və hökumət rəsmiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları Rəfiqə Əliyevanın xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Sonra Bakı Dövlət Universitetinin (BDU) rektoru, akademik Abel Məhərrəmov Rəfiqə Əliyevanın həyat və fəaliyyətindən danışıb. Qeyd edib ki, həyatının böyük hissəsini BDU-da ixtisaslı kadrların hazırlanmasına sərf edən Rəfiqə Əliyevanın Azərbaycan kimya elminin inkişafındakı xidmətləri əvəzsizdir. Görkəmli alim ekoloji kimya və ətraf mühitin mühafizəsi elmi-tədqiqat laboratoriyasının yaradıcısı və rəhbəri kimi məhsuldar elmi-pedaqoji fəaliyyət göstərib. Analitik kimya sahəsində ilk qadın akademik olan Rəfiqə Əliyeva elmi məktəb formalaşdırıb, onun tələbələri kimya elminə öz töhfələrini verməkdə davam edirlər. **"Rəfiqə xanım gözəl müəllim, qayğıkeş ana və diqqətli insan idi. O, heç kəsdən qayğısını əsirgəmirdi. Biz Rəfiqə xanımın 70 və 80 illik yubileylərini keçirmək istəyəndə bununla razılaşmadı. Yalnız vəfatından sonra biz onun 85 illik yubileyini qeyd edə bildik. Ekoloji kimya və ətraf mühitin mühafizəsi elmi-tədqiqat laboratoriyasının önündə onun barelyefi açıldı, adına təqaüd təsis edildi, elmi yaradıcılığına həsr edilən beynəlxalq konfrans keçirildi",** - deyə Abel Məhərrəmov qeyd edib.



Akademik vurğulayıb ki, Rəfiqə xanımın ən yaxşı əsərləri tələbələri və ailəsidir. Rəfiqə Əliyeva böyük alim, ictimai xadim olmaqla yanaşı, cəmiyyət üçün layiqli övladlar böyüdən qayğıkeş ana idi. Onun ailə üzvləri Azərbaycan cəmiyyətində özlərini təsdiqləyiblər.

Mərhumun ailəsi adından çıxış edən qızları - BDU-nun ekoloji kimya kafedrasının müdiri, professor Sevinc Hacıyeva və Əməkdar incəsənət xadimi Fəxriyyə Xələfova mərasim iştirakçılarına minnətdarlıqlarını bildiriblər.

Fəxriyyə Xələfova deyib ki, Rəfiqə xanımı tanıyan hər kəs onu sevərək anır. Rəfiqə Əliyeva təkcə övladları üçün deyil, həm də çalışdığı universitetin kollektivi və tələbələri üçün ana olub. Onun bütün tələbələri vurğulayırlar ki, Rəfiqə xanımın tələbəsi olmaq böyük həyati məktəb keçmək demək idi. O, fədakar insan idi, hər kəsə qayğı ilə yanaşırdı. Yüksək intellektə malik olan Rəfiqə xanım elmdə böyük irs qoyub getdi.

Qeyd edək ki, Rəfiqə Əliyeva 1932-ci il sentyabrın 20-də Naxçıvan şəhərində anadan olub. O, orta məktəbi bitirdikdən sonra ali təhsilini 1951-1956-cı illərdə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsində alıb. Rəfiqə Əliyeva 1957-ci ildən etibarən Azərbaycan Dövlət Universitetində, 1958-1960-cı illərdə isə Azərbaycan Elmlər Akademiyasının Kimya Problemləri İnstitutunda kiçik elmi işçi kimi çalışıb. 1960-1963-cü illərdə universitetin kimya fakültəsinin aspiranturasında təhsil alan Rəfiqə Əliyeva 1964-cü ildən ömrünün sonuna qədər universitetin analitik kimya kafedrasında işləyib və burada assistent, baş müəllim, dosent, professor vəzifələrini tutub. O, 1970-ci ildə namizədlik, 1999-cu ildə doktorluq dissertasiyalarını müdafiə edib və həmin ildə professor adına layiq görülüb. 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilib. 450-dən artıq elmi əsərin, 25 dərslik və dərs vəsaitinin, 20 patentin müəllifidir. Alimin rəhbərliyi ilə 20-dən çox fəlsəfə və elmlər doktoru yetişib.

# Bakıda "Qadınlar, sülh və təhlükəsizlik" mövzusunda konfrans keçirilib






Sentyabrın 20-də Bakıda "Qadınlar, sülh və təhlükəsizlik" mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransın açılışında çıxış edən Azərbaycan Respublikasının NATO yanında nümayəndəliyinin başçısı vəzifəsini icra edən Qaya Məmmədov tədbirin mövzusunun əhəmiyyətini vurğulayıb. O, Azərbaycanın qadınların təhlükəsizlik sahəsində fəal iştirakının təmin olunmasında əməkdaşlığa hər zaman hazır olduğunu söyləyib.

Qaya Məmmədov Azərbaycan-NATO əlaqələrindən danışıb. O deyib ki, Azərbaycan NATO-nun dəyərli tərəfdaşıdır və bizim təhlükəsizlik problemləri üzrə sıx əməkdaşlıq tariximiz var. NATO Azərbaycanın Əfqanıstandakı missiyaya daimi töhfəsini, eləcə də Əfqanıstan milli təhlükəsizlik qüvvələrinin hazırlanması işinə dəstəyini yüksək qiymətləndirir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova konfransda çıxış edərək Azərbaycanda qadınların hüquqlarının müdafiəsi, gender bərabərliyi barədə ətraflı məlumat verib. O, həmçinin Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan torpaqlarının 20 faizinin Ermənistan tərəfindən işğal olunması barədə danışıb. Bildirib ki, münaqişə nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Onlardan 400 mindən çoxunu qadın, 300 mindən çoxunu uşaq təşkil edir. Ermənistan Xocalıda azərbaycanlılara qarşı soyqırımı törədib. Həmin soyqırımı dünyanın 10-dan çox ölkəsi tərəfindən tanınıb. Azərbaycan münaqişə müddətində 1114 nəfərin əsir və girovluqdan azad edilməsinə nail olub. Əsirlikdən xilas olanlardan 223-ü uşaq, 363-ü qadın, 224-ü yaşlı insanlardır. Onların yenidən cəmiyyətə inteqrasiyası üçün reabilitasiya işlərinin aparılması çox vacibdir. Eyni zamanda, 29 uşaq, 98 qadın və 112 qoca hazırda girovluqdadır. Onların taleyi hələ də məlum deyil və bu gün də bu bizi çox narahat edir. Hicran Hüseynova vətəndaş cəmiyyətlərini, beynəlxalq təşkilatları bu məsələyə xüsusi diqqət ayırmağa çağırıb.

NATO baş katibinin müavini xanım Rouz Qotemöller mövzunun aktuallığını qeyd edib.

O, Azərbaycan-NATO münasibətlərinin yüksək səviyyədə olduğunu vurğulayıb.

# Səccad Kərim: Azərbaycanda mövcud olan birgəyaşayış modeli bir çox ölkələr üçün nümunədir



Sentyabrın 20-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Avropa İttifaqının Cənubi Qafqaz nümayəndəliyinin rəhbəri Səccad Kərim ilə görüşüb.

Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, Mübariz Qurbanlı DQİDK-nın fəaliyyət istiqamətləri, mövcud dövlət-din münasibətləri, dini konfessiyaların fəaliyyəti haqqında qonaqlara ətraflı məlumat verib, ölkəmizdə hökm sürən tolerant və multikultural mühit barədə danışıb. Bildirib ki, Azərbaycanda 835 dini qurum Dövlət Komitəsində qeydiyyatdan keçib. Konfessional baxımdan onların 804-ü İslam, 31-i isə qeyri-islam təmayüllüdür. Dövlət Komitəsinin sədri deyib ki, bu gün dünyada, xüsusən Yaxın Şərqdə dinlər və məzhəblər arasında münaqişələr yaşansa da Azərbaycanda bu cür hallar tarixən heç vaxt olmayıb. Dini və etnik tolerantlığa, dinlərarası və mədəniyyətlərarası dialoqa aid məsələlər ölkəmizdə çox fəal şəkildə müzakirə olunur və Azərbaycan dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınır. Mübariz Qurbanlı vurğulayıb ki, Azərbaycanda fəaliyyət göstərən bütün konfessiyalara dövlət tərəfindən daim maddi və mənəvi dəstək göstərilir, dini ibadət yerləri təmir olunur, yeniləri tikilir.

Avropa İttifaqının Cənubi Qafqaz nümayəndəliyinin rəhbəri Səccad Kərim ölkəmizin bütün sahələrdə dinamik inkişafını, Azərbaycanda dini tolerantlıq mühiti və dövlətin bu istiqamətdə yürütdüyü siyasəti yüksək qiymətləndirib. Bildirib ki, dünyəvi Azərbaycan dövləti bütün dinlərin nümayəndələrinə diqqət və qayğı ilə yanaşır. Bu cür birgəyaşayış modeli bir çox ölkələr üçün nümunə ola bilər. Eyni zamanda, Səccad Kərim Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələri yüksək dəyərləndirərək, bütün sahələr üzrə əməkdaşlığın davam etdirilməsindən məmnunluğunu ifadə edib.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında ikitərəfli münasibətlərin inkişafı, o cümlədən din sahəsi ilə bağlı məsələlər müxtəlif aspektlərdə müzakirə edilib. Qeyd olunub ki, bu sahə üzrə müzakirələrin davam etdirilməsi Avropa İttifaqı ilə Azərbaycan arasında gələcək əməkdaşlıq üçün zəmin ola bilər. Eyni zamanda, cari ilin dekabr ayında keçirilməsi planlaşdırılan beynəlxalq konfransa hazırlıqla bağlı fikir mübadiləsi aparılıb.

Sonda Mübariz Qurbanlı qonaqlara Dövlət Komitəsinin nəşr etdirdiyi kitablar hədiyyə edib.

Qeyd edək ki, görüşdə Avropa İttifaqının Azərbaycandakı səfiri Kestutis Jankauskas və DQİDK sədrinin müavini Səyavuş Heydərov iştirak ediblər.

# Aşura günü ilə əlaqədar Təzəpir məscidində qanvermə aksiyası keçirilib





Sentyabrın 20-də Aşura günü ilə əlaqədar Təzəpir məscidində qanvermə aksiyası keçirilib.

AZƏRTAC xəbər verir ki, Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Milli Məclisin komitə sədri Eldar İbrahimov, deputatlar Hüseynbala Mirələmov, Cavanşir Paşazadə, Bakı və Azərbaycan yeparxiyasının arxiyepiskopu Aleksandr, Dağ Yəhudiləri dini icmasının rəhbəri Milix Yevdayev də aksiyaya qoşulublar.

Qanvermə aksiyasından sonra Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə jurnalistlərə müsahibəsində deyib: **"Aşura günü imam Hüseynin (ə) şəhid olduğu və ədalətin bərpa edildiyi gündür. Kərbəla çölündə imam Hüseyn (ə) şəhid olarkən "mənim ölümümdə bir həyat var" deyib. Biz artıq neçə illərdir ki, şəhidlərimizi yad edir və eyni zamanda, qan verməklə həyat veririk. Biz Kərbəla şəhidləri ilə birlikdə həm də torpaqlarımızın azadlığı uğrunda şəhid olan övladlarımızı yad edirik. Bu gün qan verməklə həm də kimlərəsə can veririk. Aşura günündə baş yarmaq, zəncir vurmaq, qan çıxarmaq olmaz. Buna heç imam Hüseyn özü də razı olmazdı".**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı müsahibəsində bildirib ki, son illər yaranmış ənənəyə görə ölkə vətəndaşları Aşura günü qanvermə aksiyasında iştirak edirlər. Bu il də həmin ənənəyə uğun olaraq çoxsaylı vətəndaşlar könüllü olaraq həmin aksiyada iştirak edirlər. Aksiyanın çox böyük mənəvi, siyasi və psixoloji əhəmiyyəti var. Artıq bu ənənədən bir çox qonşu ölkələrdə, o cümlədən İran və Türkiyədə də nümunə kimi istifadə edilir. Bu, ümumən bütün dünya, eləcə də İslam dünyası üçün çox yaxşı bir nümunədir.

Aksiyanın digər iştirakçıları qanvermənin əhəmiyyətindən danışıb, bunu xüsusilə də sağlamlıq problemləri olanlar üçün faydalı bir təşəbbüs kimi qiymətləndiriblər.

# Naxçıvanda Aşura mərasimləri keçirilib



Hər il Məhərrəm ayı və onun Aşura günü muxtar respublikada İslamın dəyərlərinə uyğun qeyd olunur.

Məhərrəm ayı tarixboyu bütün səmavi dinlər tərəfindən sülh və əmin-amanlıq ayı kimi qəbul olunub.

İslamdan sonra Aşura günü Kərbəla hadisəsi ilə bağlı olub. İmam Hüseyn və tərəfdarları həmin gün haqq uğrunda şəhadətə qovuşublar. Bu günün mahiyyətində iman sevgisi, savab əməllər və əqidə saflığı kimi ali dəyərlər dayanır. Hər il muxtar respublikada keçirilən Aşura mərasimlərində insanlar bu mənəvi dəyərlər ətrafında həmrəy olur, məscidlərdə qanvermə aksiyaları keçirilir, ehtiyacı olanlara həyat verilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, sentyabrın 20-də Naxçıvan şəhərindəki Cümə məscidində Aşura mərasimi keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Aşura mərasimində iştirak edib.

Mərasimdə Qurani-Kərimdən ayələr oxunub, dualar edilib, ehsan verilib.

# Ədliyyə orqanlarına qulluğa qəbul olunan gənclərlə görüş olub





Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ədliyyəsinin inkişafı üzrə islahatlar aparılır, ədliyyə orqanlarının işinin müasir tələblər səviyyəsində qurulmasında kadrlarla işin səmərəli təşkilinə, onların düzgün seçilməsinə xüsusi önəm verilir.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu məqsədlə ədliyyənin müxtəlif sahələrinə qulluğa qəbulla bağlı açıq müsabiqə və müsahibələr keçirilir. Bu zaman dövlət gənclər siyasətinə uyğun olaraq gənclərin işlə təminatı daim diqqətdə saxlanılır. Son illər şəffaf seçimlər əsasında ədliyyə orqanlarına böyük əksəriyyəti gənclər olmaqla 2800-ə yaxın hazırlıqlı, müasir texnologiyalara bələd olan və mənəvi cəhətdən saf kadrlar qulluğa qəbul edilib. Onlar ədliyyənin müxtəlif sahələrində uğurla fəaliyyət göstərir və bir çoxu ali dövlət orqanında məsul vəzifələrə irəli çəkiliblər.

Həmçinin penitensiar və tibb xidmətlərinin hazırlıqlı və mənəvi cəhətdən saf gənclərlə komplektləşdirilməsi məqsədi ilə qulluğa qəbulla bağlı açıq müsabiqələr keçirilir, namizədlər müsabiqələrdə geniş iştiraka təşviq olunur, o cümlədən "ASAN Kadr" Karyera Mərkəzinin portalında müvafiq elanlar verilir. Eyni zamanda, təhsil müəssisələri ilə səmərəli əlaqələr qurularaq Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Ryazan Hüquq və İdarəçilik Akademiyasında, həmçinin Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsində müvafiq olaraq penitensiar və tibb sahələri üzrə nazirlik üçün xüsusi ixtisaslı gənc kadrlar hazırlanır.

Bu günlərdə Ədliyyə Akademiyasında icbari təlimi başa vuraraq penitensiar xidmətdə orta rəis heyətinə və ATU-nun Hərbi Tibb fakültəsini bitirərək tibb xidmətinə təyinat alan 40 nəfər gənc əməkdaşla nazirliyin rəhbərliyinin görüşü keçirilib.

Gənclər əvvəlcə Fəxri xiyabanda Ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri düzüb, əziz xatirəsini dərin ehtiramla anıblar.

Sonra Şəhidlər xiyabanında xalqımızın azadlığı və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman Vətən övladlarının əziz xatirəsi anılıb, məzarları önünə tər çiçəklər qoyulub.

Nazirlikdə keçirilmiş tədbirdə ədliyyə naziri Fikrət Məmmədov çıxış edərək Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi hərtərəfli inkişaf strategiyasını uğurla həyata keçirən Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızın davamlı tərəqqisini və əldə olunan nailiyyətləri vurğulayıb, bu ilin dövlətçilik tariximizin parlaq səhifələrindən olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi ilə əlamətdar olduğunu və bu tarixi hadisənin ölkəmizdə geniş qeyd edildiyini bildirib.

Dövlət başçısı tərəfindən "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunmuş 2018-ci ildə 100 illiyi qeyd olunan Azərbaycan ədliyyəsinin tarixinə, keçdiyi inkişaf yoluna toxunan nazir məhkəmə və ədliyyə sistemində aparılan islahatlarından danışıb, ölkə başçısının penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı 2017-ci ilin fevral 10-da imzaladığı mühüm, proqram xarakterli Sərəncamının məhkəmə və penitensiar sahələrdə əməli tədbirlərin görülməsi üçün "yol xəritəsi" olduğunu vurğulayıb. Həmçinin penitensiar xidmətdə qulluq keçmənin xüsusiyyətləri barədə məlumat verib, gənclərə işlərində məsuliyyətli olmağı, qanunçuluq, insan hüquqları, humanizm prinsiplərinə, nizam-intizama, etik davranış qaydalarına dönmədən əməl etməyi tapşırıb, korrupsiya və digər neqativ halların yolverilməzliyini vurğulayıb, gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Gənclər çıxış edərək qulluğa qəbul olunmalarından yüksək qürur hissi keçirdiklərini bildirib, müstəqil Azərbaycanımızın hərtərəfli tərəqqisi naminə ölkə başçısının ətrafında sıx birləşərək yorulmaz fəaliyyətində daim layiqli yardımçı olacaqlarını vurğulayıb, onlara göstərilən yüksək etimadı doğruldacaqlarına, ədliyyə işçisi adını şərəflə daşıyacaqlarına və daim uca tutacaqlarına söz veriblər.

Daha sonra təyinat almış yeni əməkdaşlar Azərbaycan Respublikasının Dövlət bayrağı önündə təntənəli qaydada and içiblər, aidiyyəti işçilərə xüsusi rütbələr verilib.

# Qırğızıstan Joqorku Keneşinin sədri TÜRKPA Katibliyində olub




Sentyabrın 20-də Qırğız Respublikası parlamentinin - Joqorku Keneşin sədri və Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) fəaliyyətdə olan sədri Dastanbek Cumabekovun başçılıq etdiyi nümayəndə heyəti TÜRKPA Katibliyinin Bakıda yerləşən inzibati binasında olub.

AZƏRTAC xəbər verir ki, burada qonaqları TÜRKPA-nın baş katibi Altınbek Mamayusupov qarşılayıb.

Nümayəndə heyəti foyedə TÜRKPA-nın fəaliyyətini əks etdirən fotosərgi ilə tanış olub, həmçinin burada yerləşən kitabxanadakı eksponatlara baxıb.

Sonra Dastanbek Cumabekov TÜRKPA-nın inzibati binasının həyətində dostluq və qardaşlıq rəmzi olan həmişəyaşıl ağac əkib.

Joqorku Keneşin sədri jurnalistlərə müsahibəsində bildirib ki, Qırğız Respublikası ilə Azərbaycan arasında qardaş münasibətləri mövcuddur. Biz həmişə bir yerdə olmuşuq, bundan sonra da bir yerdə olacağıq. Türkdilli Ölkələrin Parlament Assambleyasına üzv dövlətlər böyük potensiala malikdirlər. Biz bu potensialdan səmərəli istifadə edərək bir-birimizi dəstəkləməliyik.

Spiker, həmçinin bildirib ki, Qırğızıstan ilə Azərbaycan arasında ticarət dövriyyəsinin artırılması yolları barədə müzakirələr aparılır.

# Azərbaycan Dövlət Təhlükəsizliyi Xidməti erməni terrorçu-daşnak qüvvələrinin terror əməllərini sübut edən arxiv sənədlərini yayıb








Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti (DTX) erməni terrorçu-daşnak qüvvələrinin terror əməllərini sübut edən arxiv sənədlərini yayıb.

AZƏRTAC xəbər verir ki, Dövlət Təhlükəsizliyi Xidməti arxivlərində saxlanılan sənədli materialların bir qisminin üzərindən məxfiliyi götürüb.

DTX-nin bu barədə yaydığı məlumatda deyilir ki, 1813-cü ildə Gülüstan, 1828-ci ildə isə Türkmənçay müqavilələrinin imzalanması ilə Azərbaycanın tarixi və əzəli torpaqlarının bölünməsi başa çatmadı, əksinə ərazilərimizin zorən qoparılması prosesi düşmən qüvvələrin himayəsi, təhriki və bilavasitə iştirakı ilə ardıcıl xarakter aldı və davam etdi. Bir çox qonşu ölkələrdə yaşayan ermənilərin məqsədli şəkildə Azərbaycan torpaqlarına köçürülməsinə başlandı və azərbaycanlıların dədə-baba yurdlarında "erməni vilayəti" adlandırılan qondarma inzibati ərazi bölgüsü yaradıldı. Daha sonra isə "böyük Ermənistan" xülyası təbliğ olunmağa başlanıldı və bu məqsədlə kökündə vəhşət və terrorun dayandığı müxtəlif erməni təşkilatları meydana çıxdı. Bununla da erməni-daşnak qüvvələrinin Azərbaycan xalqının məhv edilməsi və onun torpaqlarının qəsb olunması istiqamətində daha məkrli və məqsədyönlü siyasətinin bünövrəsi qoyuldu.

Müasir Ermənistanda terrorçuluq və faşizm ideologiyası dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Bu ideologiya bünövrədən qonşu dövlətlərə əsassız ərazi iddialarının, azərbaycanlılara, türklərə və digər xalqlara qarşı etnik təmizləmə siyasətinin başlıca xəttini təşkil edir. Erməni terrorçu-daşnak qüvvələri hər zaman öz məkrli hədəflərinə çatmaq üçün ən çirkin üsullardan istifadə etmiş, hətta tarixi Azərbaycan torpaqlarında onların köçürülməsinə rəvac vermiş, himayə etmiş çar və sovet Rusiyasına qarşı çıxmaqdan belə çəkinməmişlər. İkinci Dünya müharibəsində faşistlərin silahlı birləşmələrinin tərkibində erməni cəlladlarının törətdikləri vəhşiliklər barədə tutarlı sübutlar incələndikcə bu dəhşətlərin nəticələri vahimə yaradır. Bu gün Ermənistanda hansı siyasi qüvvənin hakimiyyətə gəlməsindən asılı olmayaraq, şovinizm, ekstremizm, hərbi təcavüz, qəsbkarlıq hər zaman ən ifrat formada təbliğ və təşviq olunur, gənc nəsil qonşu xalqlara nifrət və dözümsüzlük ruhunda tərbiyə edilir, insanlığa qarşı cinayətlər törətmiş ermənilərin "qəhrəman" obrazının aşılanması, onlara abidə qoymaqla faşizm "vətənpərvərlik" əmsalı kimi ictimai şüura təlqin edilir.

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin arxivlərində saxlanılan sənədli materialların araşdırılması zamanı erməni terrorçu-daşnak qüvvələrinin, o cümlədən terrorizm ideologiyasının daşıyıcısı olan "Daşnaksutyun" partiyasının, habelə İkinci Dünya müharibəsi illərində bəşəriyyətə qarşı cinayətlərdə xüsusi amansızlıqla fərqlənmiş erməni milliyyətindən olan şəxslərin qəddar əməlləri çoxsaylı faktlarla təsdiqini tapmışdır.

Bu arxivlərdəki sənədli materialların mütərəqqi dünyanın terrordan və faşizmin fəsadlarından qorunması baxımından elmi-tarixi əhəmiyyətini, Ermənistanın Azərbaycana qarşı yeritdiyi qəsbkarlıq və hərbi təcavüz siyasətinin nəticələrinin beynəlxalq ictimaiyyətə çatdırılmasının xüsusi aktuallıq kəsb etdiyini və bu siyasətin ifşa olunmasında ilkin sənədli mənbələrə istinadın zəruriliyini nəzərə alaraq, Dövlət Təhlükəsizliyi Xidməti arxivlərində saxlanılan sənədli materialların bir qisminin üzərindən məxfiliyin götürülməsi və onların geniş ictimaiyyətə açıqlanmasını məqsədəmüvafiq hesab etmişdir. Həmin materialların DTX-nin rəsmi internet səhifəsində yerləşdirilməsinə qərar verilmişdir.

# UNEC yeni tədris ilinə yüksək keyfiyyət göstəriciləri ilə start verib



UNEC-də yeni tədris ilinin ilk Elmi Şurası keçirilib. UNEC-in rektoru, professor Ədalət Muradov yeni tədris ilinin başlaması münasibətilə şura üzvlərini təbrik edərək, onlara işlərində uğurlar arzulayıb.

Elmi Şurada Tədrisin keyfiyyətinin qiymətləndirilməsi və idarəedilməsi mərkəzinin direktor müavini, dosent Söhrab İsayev 2017/2018-ci tədris ilinin yay imtahan sessiyasının yekunları barədə hesabatla çıxış edib. S.İsayev imtahan nəticələri ilə bağlı apelyasiya şikayətlərinin nəzərəçarpacaq dərəcədə azaldığını, ümumilikdə isə imtahanların ötən dövrlərlə müqayisədə daha mütəşəkkil təşkil olunduğunu diqqətə çatdırıb. Şurada ilk dəfə olaraq yay semestri ilə bağlı müzakirələr aparılıb. Bildirilib ki, yay semestrinin təşkilində institutlaşmaya ehtiyac var.

Tədris və təlim texnologiyaları üzrə prorektor, professor Damət Bağırov UNEC-də, Dərbənd və Zaqatala filiallarında, Maliyyə-İqtisad Kollecində yeni tədris ilinə hazırlıqla bağlı məruzə ilə çıxış edib. Bildirilib ki, yeni tədris ilindən UNEC-in Dərbənd filialında ali təhsil ilə yanaşı, orta ixtisas təhsili üzrə mütəxəssis hazırlığı da həyata keçiriləcək. Beləliklə də UNEC təhsilin hər iki istiqaməti üzrə ölkə xaricində tədris fəaliyyəti göstərən ilk Azərbaycan universiteti olub.

Şurada 2018/2019-cu tədris ili üçün qəbul imtahanlarının nəticələri də açıqlanıb. Yeni tədris ilində UNEC-ə bakalavriat səviyyəsi üzrə qəbul planının 92,1% yerinə yetirildiyi qeyd edilib. Ən yüksək bal toplayanların UNEC-ə qəbul sayında ciddi irəliləyişin olduğuna diqqət çəkilərək, II ixtisas qrupu üzrə 600-dən yüksək bal toplayanların 63%-nin (I ixtisas qrupu üzrə isə bir nəfər) seçiminin məhz UNEC olduğu bildirilib, bunun isə 2014-cü illə müqayisədə 3,8 dəfə çox olduğu xüsusi vurğulanıb. Şurada 2018/2019-cu tədris ili üçün Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinə (BMDM) qəbulun nəticələri də açıqlanıb. Bildirilib ki, ölkənin ali təhsil müəssisələrinə magistratura pilləsi üzrə qəbul planı 74,87 % yerinə yetirildiyi halda, UNEC-də BMDM-ə qəbul planı 91,4%, Magistratura Mərkəzinə 84,1%, UNEC Biznes Mərkəzinə isə 97% yerinə yetirilib.

Şura üzvləri UNEC-in Zaqatala filialına daha çox abituriyent cəlb etmək məqsədilə filialda təhsil alan tələbələrin təkrar imtahanlara görə ödənişlərinin həcminin 25%-dən 10%-ə endirilməsi barədə qərar qəbul ediblər. Rusiya vətəndaşlarının UNEC-in Dərbənd filialında təhsil alması üçün əlçatanlığını artırmaq məqsədilə isə təhsil haqqının 26.000 rubl məbləğində müəyyən edilməsi şurada təsdiq edilib.

Elmi Şurada qeyd olunub ki, UNEC missiyasını layiqli şəkildə yerinə yetirmək və müəyyən etdiyi vizyonunu reallığa çevirmək məqsədilə "UNEC dəyərləri" müəyyən olunub. Akademik azadlıq, akademik etika, layiqlilik, şəffaflıq, mükəmməllik, keyfiyyətlilik, iştirakçılıq, fərqliliklərə hörmət, cəmiyyət mənafeyini düşünmək kimi yüksək mənəvi keyfiyyətləri özündə birləşdirən "UNEC dəyərləri" şura üzvləri tərəfindən yekdilliklə qəbul olunub.

Şurada "Azərbaycan Dövlət İqtisad Universitetində professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan differensial əməkhaqqı sistemi haqqında qaydalar"a dəyişikliklər də təsdiq edilib. UNEC-in tədqiqat universitetinə çevrilmə istiqamətindəki strateji hədəflərinə uyğun olaraq aparılan dəyişikliklərə əsasən, sistemdə elmi fəaliyyətlərin payı 40%-dən 70%-ə yüksəldilib. "Web of Science" və "Scopus" platformalarına daxil olan nüfuzlu elmi jurnallarda məqalələrin və nüfuzlu beynəlxalq nəşriyyatlarda monoqrafiyaların nəşr edilməsi, istinadlara görə verilən ballar əhəmiyyətli dərəcədə artırılıb və "Scopus" bazasında elmi məruzələrin nəşr edilməsi də nəzərə alınıb.

Daha bir dəyişiklik isə 2018-2019-cu tədris ili üçün "Nüfuzlu elmi nəşrlərdə əsərləri çap olunan UNEC əməkdaşlarının mükafatlandırılması haqqında qaydalar"a edilib.

# Professor Oleq Kuznetsov: SSRİ DTK da daşnakları təhlükəli hesab edib



Sentyabrın 20-də rusiyalı tarixçi və hüquqşünas, professor Oleq Kuznetsov "Ermənistan: Faşizm tüğyan edən ölkə" mövzusunda mətbuat konfransı keçirib.

AZƏRTAC xəbər verir ki, rusiyalı tarixçi alim konfransda SSRİ Xalq Daxili İşlər Komissarlığının (XDİK) 1930-cu illərdəki arxivində erməni daşnaklarına aid faktlarla bağlı məlumat verib. O.Kuznetsov bildirib ki, 1930-cu illərin əvvəllərində bolşevik Rusiyasında daşnaklara xüsusi rəğbət olub. Məxfi hesabatlarda qeyd olunub ki, daşnaklar özlərini bolşeviklərə ideoloji tərəfdaş kimi göstərməyi bacarıblar. Rusiyalı alimin fikrincə, 1930-cu illərin ortalarında Adolf Hitler Almaniyada iqtidara gəldikdən sonra Daşnak partiyasının liderlərindən olan Qaragen Nijde ABŞ-ın Boston ştatında irqçi təşkilat yaradıb. O.Kuznetsov SSRİ Xalq Daxili İşlər Komissarlığının 1935-ci il arxiv materiallarını konfrans iştirakçılarının diqqətinə çatdıraraq deyib ki, Nijde ermənilərin dünyanın əksər millətlərindən üstün olduğunu bəyan edirmiş. Hətta onun ideologiyasına görə, ermənilər ari irqin nümayəndələri kimi digər xalqları məhv etmə səlahiyyətinə malikdir. Q.Nijdenin bu cür sərsəm fikirlərindən sonra o, ABŞ-dan qovulub.

Məxfi sənədlər əsasında danışan Kuznetsov diqqətə çatdırıb ki, daha sonra qatı erməni millətçisi Almaniyada o zaman faşizmin mərkəzi olan Münxen şəhərində məskunlaşır. Məhz irqçi fikirlərinə görə, 1936-cı ildə Hitler hakimiyyəti tərəfindən himayə olunur. Həmin dövrlərdə faşizmin təbliği ilə bağlı çoxlu sayda məqalənin yazılması barədə faktların SSRİ XDİK-nin arxivlərində yer aldığını deyən rusiyalı qonaq bildirib ki, erməni faşizmi XX əsrin ortalarında tam şəkildə formalaşmışdı.

Oleq Kuznetsovun sözlərinə görə, SSRİ XDİK-i 1930-cu illərin sonlarında artıq bundan narahat olmağa başlayıb. Bu səbəbdən SSRİ-dəki daşnaklara qarşı kütləvi repressiyalar aparılıb. Rusiyalı tarixçinin araşdırmalarına görə, hətta SSRİ təhlükəsizlik orqanları siyahı tərtib edərək daşnakları 3 qrupa bölüb. Bu qruplardan ən təhlükəliləri Daşnaksutyun partiyasının üzvləri, sonra 1921-ci ildə daşnak üsyanında iştirak edən şəxslər və üçüncüsü daşnak ideologiyasına meyil göstərənlər idi.

Tarixçi alim deyib: **"DTK-nın İkinci Dünya müharibəsi ilə bağlı arxiv sənədlərindən aydın görmək olur ki, erməni daşnakları həmin dövrlərdə xüsusi qəddarlıqla kütləvi qırğınlar törədiblər. Alman faşistləri ilə birlikdə əsir düşərgələrindəki insanlara işgəncələr verilməsində və sovet ordusuna qarşı döyüş əməliyyatlarında iştirak ediblər".**

O.Kuznetsov Nijdenin Birinci Dünya müharibəsi illərində də xüsusi vəhşiliklər törətdiyini bildirib. 1912-1913-cü illərdə Balkan müharibəsində bir sıra Avropa ölkələrinin xüsusi xidmət orqanlarının hazırladığı hesabatda Nijdenin Bolqarıstan dövləti ərazisində türk kəndlərində törətdiyi amansız qırğınlar faktlarla göstərilib.

# Bu gün Azərbaycan gəncliyində vətənpərvərlik ruhu çox yüksəkdir



***Yeni Azərbaycan Partiyasının (YAP) Gənclər Birliyinin sədri Seymur Orucov www.yap.org.az saytına müsahibə verib:***

**- Seymur müəllim, bu günlərdə Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi Avropa Demokratik Gənclər Birliyinin (DEMYC) üzvü seçildi. Bu hadisənin əhəmiyyəti nədən ibarətdir?**

- Ümumiyyətlə, Yeni Azərbaycan Partiyası geniş beynəlxalq əlaqələrə malikdir. YAP Gənclər Birliyi də partiya rəhbərliyinin dəstəyi ilə bu istiqamətdəki fəaliyyətini daha da genişləndirməyə çalışır. Bir sıra ölkələrin siyasi partiyaları ilə ikitərəfli münasibətlərimiz mövcuddur. Eləcə də beynəlxalq gənclər təşkilatları çərçivəsində də işimizi yüksək səviyyədə qurmağa çalışırıq. Bilirsiniz ki, YAP Gənclər Birliyi İCAPP-ın gənclər qolunun üzvüdür və bu qurumda sədr müavini səviyyəsində təmsil olunur. Biz həmçinin Avropa Xalqları Partiyasının (EPP) gənclər təşkilatları ilə də əməkdaşlıq edirik.

DEMYC təşkilatına gəlincə, YAP Gənclər Birliyi bir neçə il idi ki, onun müşahidəçi statuslu üzvü idi. Bu təşkilat nəinki Avropada, bütün dünyada nüfuza sahib olan beynəlxalq gənclər təşkilatıdır və bütün qitələri özündə birləşdirir. Təşkilata tam hüquqlu üzv olmaq üçün xeyli vaxtdır iş aparılırdı və bu, öz nəticəsini verdi. DEMYC-in Bakıda keçirilən Mərkəzi Şura iclasında YAP Gənclər Birliyinin təşkilata üzv seçilməsi haqqında yekdilliklə qərar qəbul olundu.

Ümumilikdə, biz çalışdıq ki, qonaqların Bakı səfəri yüksək səviyyədə baş tutsun və belə də oldu. Bu məsələdə partiyanın İcra Katibliyi lazımi dəstək verdi. Həmin iclasın Bakıda keçirilməsi də böyük uğur idi. Çünki bir neçə ölkə də həmin iclasa ev sahibliyi etmək üçün müraciət etmişdi. Amma bu məsələdə seçim Bakı oldu. İclasda 40-a yaxın xarici qonaq iştirak edirdi. Onların arasında parlament üzvləri, nazir müavinləri də var idi. Qonaqlar səfərin təşkilindən razı qaldılar və Bakı şəhərini çox bəyəndilər. Hətta qurumun İtaliyadan olan baş katibi YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədovla görüş zamanı bildirdi ki, Bakı çox gözəl, təmiz şəhərdir və İtaliyanın bələdiyyə rəhbərləri Azərbaycanın bu təcrübəsini öyrənməlidirlər.

Bütövlükdə, YAP Gənclər Birliyinin DEMYC təşkilatına üzv seçilməsi böyük uğurdur. Biz bu təşkilat vasitəsilə Azərbaycan həqiqətlərini dünyaya daha aktiv şəkildə çatdırmağa çalışacağıq. Azərbaycan Avropanın ayrılmaz hissəsinə çevrilib və ölkəmiz bütün dünyada etibarlı tərəfdaş kimi tanınır. DEMYC təşkilatının üzvü olan gənclər də gələcəkdə öz ölkələrində rəhbər vəzifələr tutmaq potensialına malik olan şəxslərdir. Ona görə də, biz bu təşkilata üzv olmaqla beynəlxalq aləmdə Azərbaycanın dostlarının artmasına çalışırıq. Biz DEMYC-in tam hüquqlu üzvü olduğumuz üçün qurum çərçivəsində yeni çağırışların təşəbbüskarı olmağa çalışacağıq.

Təbii ki, beynəlxalq əlaqələrimizi bundan sonra da genişləndirmək istəyirik. Yaxın vaxtlarda Rusiyanın hakim partiyasının gəncləri ilə görüşümüz olacaq. Eləcə də Türkiyənin AK Partyasının gənclər qolları ilə yeni platformalar yaratmaq istəyirik. Bir sözlə, beynəlxalq əlaqələrimizi genişləndirmək əsas hədəflərimizdən biridir. Azərbaycan dünyada sabitliyin hökm sürdüyü və dinamik inkişaf edən, etibarlı tərəfdaş ölkə kimi tanınır. Təbii ki, ölkəmiz bu imici Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində qazanıb. Ona görə də, gənclər olaraq müxtəlif təşəbbüslərimizlə Azərbaycanın bu imicini hər zaman qorumağa çalışırıq.

**- Sentyabrın 15-də Bakı şəhərinin erməni-daşnak, bolşevik işğalından azad olunmasının 100 illiyinə həsr olunmuş hərbi parad keçirildi. Hərbi paradda Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan da iştirak etdi. Bu hadisəni Azərbaycan-Türkiyə münasibətləri kontekstində necə şərh edərdiniz?**

- Əlbəttə ki, sentyabrın 15-də Bakıda keçirilən hərbi parad öz möhtəşəmliyi ilə müasir tariximizə qızıl hərflərlə yazıldı. Bu hadisə həm də Azərbaycan və Türkiyənin dostluq, qardaşlıq və həmrəylik nümunəsidir. Bu cür tarixi anlardan biri də 15 sentyabr 1918-ci ildə Azərbaycanın Milli Ordusunun Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu ilə birlikdə Bakını erməni-daşnak, eser-menşevik və bolşeviklərdən azad etməsidir. Xalqımız öz şanlı tarixinin qürur dolu və parlaq səhifələrindən biri olan Bakının erməni-bolşevik qüvvələrinin işğalından azad edilməsinin 100 illiyini böyük ruh yüksəkliyi və qürur hissi ilə qeyd edir.

Azərbaycan xalqı onun istiqlalı uğrunda şəhid olmuş türk əsgərlərinin xatirəsinə ehtiramını layiqincə ifadə edir. Bu gün türk xalqlarının mədəni-mənəvi inteqrasiyasının daha da dərinləşdirilməsini, türk tarixinin obyektiv araşdırılmasını başlıca vəzifə elan etmiş müvafiq strukturlar türkün şanlı zəfər salnaməsinə parlaq səhifə kimi daxil olmuş həmin hadisələrin - Azərbaycan Milli Ordusu ilə Qafqaz İslam Ordusunun Azərbaycanda 100 il öncə apardığı uğurlu döyüşlərin tam təfsilatının öyrənilməsinə və təbliğinə, bu qəhrəmanlıq örnəyinin gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi üçün əyani vəsaitə çevrilməsinə xüsusi diqqət yetirilməkdədir. Beləliklə, tariximizin ən şanlı səhifələrindən olan bu möhtəşəm zəfər Azərbaycan-Türkiyə qardaşlığının bariz nümunəsi və təntənəsi, qürur və iftixar mənbəyidir.

Ümumiyyətlə, Türkiyə-Azərbaycan münasibətləri uğurlu regional və beynəlxalq əməkdaşlıq nümunəsi olmaqla yanaşı, həm də dostluq və qardaşlıq örnəyi kimi xarakterizə edilir. Bütövlükdə, hər bir sahədə inkişaf edən Azərbaycan-Türkiyə dostluğu və strateji tərəfdaşlığı dünya üzrə unikal bir nümunəyə çevrilib. Qürurverici haldır ki, bu gün Türkiyə və Azərbaycan bütün məsələlərdə bir-birini dəstəkləyir, dostluq, qardaşlıq nümunəsi ilə dünyaya örnək olurlar. Türkiyə və Azərbaycan nəinki regionda, eləcə də beynəlxalq miqyasda bir-birini ən sıx və yaxından dəstəkləyən ölkələr kimi çıxış edirlər. Başqa sözlə, dərin tarixi köklər, sarsılmaz dostluq Türkiyə-Azərbaycan qardaşlığının təməlini təşkil edir. Reallıq budur ki, dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın olan ölkələr tapmaq mümkün deyil.

**- Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasında öz mövqeyini daha da gücləndirir...**

- Ölkəmizdə bütün sahələrin paralel inkişafı fonunda ordu quruculuğu sahəsində də sistemli və kompleks işlər aparılır. Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda müasir ordu quruculuğu siyasəti uğurla həyata keçirilir. Müharibə şəraitində yaşayan bir ölkə kimi Azərbaycanın güclü orduya, təkmilləşmiş hərbi sistemə, inkişaf etmiş müdafiə sənayesinə malik olması ölkənin təhlükəsizliyi baxımından böyük önəm kəsb edir.

Məlum olduğu kimi, milli təhlükəsizlik strategiyasının ayrılmaz tərkib hissəsini təşkil edən hərbi təhlükəsizliyin möhkəmləndirilməsi milli ordunun maddi-texniki və mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsindən xeyli dərəcədə asılıdır. Son illər ərzində bu sahədə həyata keçirilən davamlı islahatlar və məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda çox sürətlə və yüksək səviyyədə aparılan ordu quruculuğu işi artıq öz bəhrəsini verib. Əminliklə söyləmək olar ki, Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə hər an hazırdır.

**- Seymur müəllim, Azərbaycan gəncliyinin səciyyəvi xüsusiyyətlərindən biri yüksək vətənpərvərlik ruhuna malik olmasıdır. Bu barədə nə deyə bilərsiniz?**

- Ordunun döyüş qabiliyyətini müəyyən edən mühüm faktorlardan olan vətənpərvərlik ruhu da Azərbaycan Silahlı Qüvvələrinin səciyyəvi keyfiyyətlərindəndir. Müharibə şəraitində yaşayan bir ölkə üçün ən vacib məqamlardan biri də orduda və vətəndaşlar arasında sağlam mənəvi-psixoloji durum, ruh yüksəkliyi, özünəinam, vətənpərvərlik hisslərinin hakim olmasıdır. Bu gün Azərbaycan cəmiyyətində belə əhval-ruhiyyə mövcuddur. Bunun nəticəsidir ki, xalqımız regionda aparıcı güc strukturuna çevrilmiş Azərbaycan Silahlı Qüvvələrinə vahid mərkəzdən idarə olunan, maddi-texniki bazası, intellektual potensialı xeyli möhkəmlənmiş, istənilən döyüş tapşırığını yerinə yetirməyə qadir bir qüvvə kimi böyük inam bəsləyir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ordu quruculuğu siyasəti sayəsində bu gün Azərbaycan regionda ən güclü orduya malik olan dövlətə çevrilib. Sabitlik, dinamik iqtisadi inkişafla yanaşı, qeyd etdiyimiz kimi, güclü ordu quruculuğu müasir Azərbaycanı xarakterizə edən əsas amillərdəndir. Dövlət başçısının orduya qayğısı, hərbi hissələrə davamlı olaraq baş çəkməsi, cəbhə bölgəsində xidmət göstərən hərbçilərlə görüşməsi onlarda ruh yüksəkliyini daha da artırır.

Bu gün Azərbaycan gəncliyində vətənpərvərlik ruhu çox yüksəkdir. Sevindirici haldır ki, ölkəmizdə məhz bu ruhda gənc nəsil formalaşıb. Sağlam, intellektual, güclü vətənpərvərlik ruhuna malik gəncliyi olan ölkəmiz hər bir sahədə möhtəşəm nailiyyətlər qazanmağa qadirdir. Gün gələcək bu gənclik Ali Baş Komandanın əmri ilə qısa zamanda torpaqlarımızı erməni işğalından azad edəcək.

# Azərbaycan Respublikasının prokurorluq orqanları 100 illik şərəfli tarixə malikdir



**Hacıyev Rasim Akif oğlu**
**Yasamal rayon prokuroru, baş ədliyyə müşaviri**

Ölkəmizin prokurorluq orqanlarının bütün əməkdaşları, veteranlarımız, bütövlükdə respublikanın hüquq ictimaiyyəti prokurorluq işçilərinin peşə bayramını və Azərbaycan Respublikası Prokurorluğunun yaradılmasının 100-cü ildönümünü yüksək əhval-ruhiyyə ilə qeyd edirlər. Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan siyasət Azərbaycan Prokurorluğunun cəmiyyətdə və dövlət təsisatları sırasında tutduğu yeri müəyyənləşdirməklə, bu orqana göstərilən yüksək qayğının və hərtərəfli dəstəyin təzahürü kimi hər bir əməkdaşımızda böyük qürur hissi doğurur.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının prokurorluq orqanları 100 illik şərəfli tarixə malikdir. 1918-ci il mayın 28-də Şərqdə ilk müstəqil respublika - Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı və Azərbaycanın istiqlal bəyannaməsi qəbul edildi. Bu hökumətdə ədliyyə naziri Xəlilbəy Hacıbaba oğlu Xasməmmədov olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanı fəaliyyətə başlamışdır. Bundan sonrakı dövrdə ədliyyə naziri Xəlilbəy Xasməmmədovun təqdimatı ilə 14 noyabr 1918-ci il tarixdə Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə "Azərbaycan məhkəmə palatası" və onun əsasnaməsi təsdiq edilmiş, eyni zamanda, ştat üzrə prokurorlar təyin edilərək fəaliyyət göstərmişlər.

28 aprel 1920-ci il tarixdə 11-ci ordunun işğalı nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti öz səlahiyyətlərini bolşeviklərə verməklə fəaliyyətinə xitam vermiş, nəticədə Azərbaycan Sovet Sosialist Respublikası yaradılaraq yeni hökumət təşkil edilmişdir. İnqilab Komitəsinin 13 may 1920-ci il tarixli qərarına əsasən fəaliyyətdə olan 1918-ci ildə yaranmış "Məhkəmə palatası", Bakı, Gəncə dairə məhkəmələri, onların nəzdində olan rütbəli prokuror nəzarəti və məhkəmə müstəntiqləri, onlara bərabər andlı məhkəmələri, vəkillər idarəsi və məhkəmə pristavları ləğv edilmiş, bunların əvəzinə İnqilab Komitəsi nəzdində inqilabi qanunları müdafiə funksiyasını daşıyan yeni məhkəmə palatası və müstəntiqlərdən ibarət istintaq komissiyaları təsis edilmişdir.

28 may 1922-ci ildə Rusiya Ədliyyə Komissarlığı nəzdində Dövlət Prokurorluğu təsis olunmuşdur. Müvafiq olaraq 11 iyun 1922-ci il tarixdə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin dekreti ilə Ədliyyə Komissarlığı nəzdində Dövlət Prokurorluğu təsis edilmişdir. Həmin dekretə əsasən, dövlət adından bütün dövlət orqanlarında qanunların dürüst icrasına nəzarət etmək, təsərrüfat idarələri, şəxslər tərəfindən qanun pozuntularına yol verildiyi halda qanunsuz qərarlardan protest vermək və təqsirkarlar haqqında cinayət işi qaldırmaq, cinayətlərin açılması sahəsində təhqiqat və istintaq orqanlarının fəaliyyətinə bilavasitə nəzarət etmək, məhkəmələrdə dövlət ittihamçısı kimi çıxış etmək, dustaqların təcridxanalarda qanuni saxlanılmasına nəzarət etmək prokurorluğa həvalə edilmişdir. Daha sonra Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin "Azərbaycanın məhkəmə quruluşu haqqında" 17 noyabr 1923-cü il tarixli qərarı ilə Ədliyyə Nazirliyi nəzdində Dövlət Prokurorluğu bir şöbə kimi yaradıldı.

1927-ci ilə Azərbaycan MİK öz qərarı ilə "Məhkəmə quruluşu haqqında əsasnamə"ni təsdiq edərək Bakı və Gəncə dairə məhkəmələri əvəzinə 13 əyalət prokurorluqları yaradılmışdır. 1929-cu ildə isə respublikada yeni inzibati və ərazi bölgüləri ilə əlaqədar əyalət prokurorluqları ləğv edilərək əvəzinə 8 dairə prokurorluqları təsis edilmişdir. 1930-cu ildə Respublika Ədliyyə Nazirliyi ləğv edildikdən sonra prokurorluq Mərkəzi İcraiyyə Komitəsinin tabeliyinə verilməklə ona respublika prokuroru başçılıq edirdi.

1931-ci ildə isə Zaqafqaziya respublikaları prokurorluğu təşkil edilərkən Azərbaycan, Gürcüstan və Ermənistan prokurorluqları onun tabeliyində fəaliyyət göstərmişlər.

20 iyun 1933-cü ildə SSRİ Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarlar Sovetinin qərarı ilə ilk dəfə SSRİ Prokurorluğu yaradıldı, 17 dekabr 1933-cü ildə isə prokurorluq haqqında əsasnamə təsdiq edildi. Qərarla SSRİ Prokurorluğunun İttifaq respublikaları üzərində rəhbərliyinin formaları və əlaqələri müəyyənləşdirildi. Prokurorluqların mərkəzləşdirilməsi prosesi başa çatdıqdan sonra SSRİ Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarlar Sovetinin 20 iyul 1934-cü il tarixli qərarı ilə istintaq aparatı ittifaq və respublika ədliyyə komissarlıqları nəzdindən çıxarılıb SSRİ Prokurorluğuna tabe edildi.

1936-cı ildə SSRİ Konstitusiyası qəbul olunaraq əsas Qanunun 164-168-ci maddələri sovet dövlət orqanları sistemində prokurorluğun yerini, onun əsas vəzifələrini, mərkəzi və yerli hakimiyyət orqanları ilə qarşılıqlı münasibətini müəyyən etdi, bütün nazirliklər, dövlət komitələri və baş idarələr, müəssisə, idarə və təşkilatlar, yerli xalq deputatları sovetlərinin icraedici və sərəncamverici orqanları, kolxozlar, kooperativ təşkilatları və digər ictimai təşkilatlar, vəzifəli şəxslər, habelə vətəndaşlar tərəfindən qanunlara dürüst və eyni qaydada riayət olunması üzərində Ali Nəzarət SSRİ Baş Prokurorluğuna və ona tabe olan prokurorluqlara həvalə edildi.

Azərbaycan Respublikasının əvvəlki konstitusiyalarında prokurorluq müstəqil dövlət orqanı kimi öz əksini tapmışdır. Azərbaycan SSR-in 1936-cı, daha sonra 1978-ci il konstitusiyalarında prokurorluğa böyük səlahiyyətlər verilməsi ilə prokurorluq dövlətin həyatında ona ayrılmış çoxşaxəli və vacib funksiyaların daşıyıcısına çevrildi.

SSRİ Prokurorluğu hüquq sistemində öz yerindən irəli gələn vəzifələri icra edərkən dövlətin mənafeyini güdürdüsə, müasir prokurorluq insan hüquq və azadlıqlarının keşikçisi, onların təminatçısı qismində fəaliyyət göstərir.

Hakimiyyətin bölünməsi prinsipinin hüquq nəzəriyyəsində qəbul edilməsi, onun əvvəlcə 18 oktyabr 1991-ci il tarixli "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının 13-cü maddəsində, daha sonra isə Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsində göstərilməsi Azərbaycan Respublikasının dövlət hakimiyyəti sistemində prokurorluğun yerinin müəyyənləşdirilməsinə hüquqi əsaslar yaratmışdır. 12 noyabr 1995-ci il tarixli Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq, Azərbaycan Respublikasının Prokurorluğu məhkəmə hakimiyyətinə aid edilmişdir. Prokurorluğun yerini məhkəmə hakimiyyəti sistemində müəyyən etməklə Azərbaycan Respublikası Konstitusiyası hüquqi varisliyi təmin etmişdir. Həmin varisliyin təsdiqinin əyani təcəssümü Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanlarının fəaliyyətə başlamasını əsas tutaraq hər il oktyabr ayının 1-nin Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi barədə 17 iyul 1998-ci il tarixli Sərəncamı olmuşdur.

Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının Prokurorluğu sinfi mənafelərə xidmət edən orqandan qanunun aliliyinin, insan hüquq və azadlıqlarının qorunmasına xidmət edən orqana çevrilməliydi. Bunun təməli Ümummilli lider Heydər Əliyevin birbaşa rəhbərliyi ilə işlənilib hazırlanmış müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında qoyulmuşdur.

Belə ki, 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi ilə qəbul edilmiş Konstitusiyamızda insan və vətəndaş hüquq və azadlıqlarının respublika ərazisində birbaşa qüvvəyə malik olduğu, onların təmin edilməsi isə dövlətin ali məqsədi kimi təsbit edilmişdir. Bu baxımdan təsadüfi deyil ki, dövlət həyatının bütün sahələrinin təşkili və fəaliyyət əsaslarını müəyyən edən Konstitusiya normalarının böyük qismi insan və vətəndaş hüquq və azadlıqlarına həsr olunmuşdur.

Ümummilli liderimiz Heydər Əliyevin 26 aprel 2000-ci il tarixdə prokurorluq orqanlarının rəhbər işçiləri ilə tarixi görüşündən sonra həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində prokurorluq orqanlarında köklü islahatlar və struktur dəyişiklikləri aparılmış, prokurorluqda sağlam kadr korpusunun formalaşdırılması prosesinə başlanılmış, zəruri normativ və maddi-texniki baza yaradılmış, demokratik mahiyyətdə tamamilə yenidən formalaşdırılmış bu orqanın normal və səmərəli fəaliyyəti üçün qanunverici əsaslar yaradılmışdır. Həmin görüşdə dərin məzmunlu nitq söyləyən Ümummilli lider Heydər Əliyev prokurorluq orqanlarının fəaliyyətində əvvəllər yol verilmiş nöqsanların və çatışmazlıqların aradan qaldırılması üçün konkret tapşırıqlar vermişdir.

Müşavirədən sonra Azərbaycan Respublikası Prokurorluğunda Respublikanın Baş prokuroru, cənab Zakir Qaralovun bilavasitə rəhbərliyi ilə hərtərəfli islahatlara start verilmiş, Ulu öndər Heydər Əliyevin proqram xarakterli çıxışından irəli gələn tövsiyələr çərçivəsində prokurorluqda görülməsi vacib olan işlərin əsas istiqamətləri müəyyənləşdirilmişdir. Prokurorluğun səlahiyyətləri və fəaliyyət istiqamətləri ilə yanaşı, onun yeni strukturu hazırlanmış, dövrün tələblərindən irəli gələrək bir sıra yeni idarələr, şöbələr yaradılmışdır. Ötən müddətdə qanunçuluq, hər kəsin qanun qarşısında hüquq bərabərliyi, fiziki və hüquqi şəxslərin hüquqlarına əməl və hörmət edilməsi, obyektivlik, qərəzsizlik, faktlara əsaslanma, vahidlik, mərkəzləşmə, siyasi bitərəflik prokurorluğun fəaliyyətinin əsas prinsiplərini təşkil etmişdir.

Ulu öndər Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev milli prokurorluq orqanlarının fəaliyyətini diqqət mərkəzində saxlamaqla yanaşı, daima bizlərə qayğı göstərir. Prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi, kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlığının artırılması, prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərinin sosial müdafiəsinin yüksəldilməsi məqsədilə 27 sentyabr 2008-ci il tarixli Sərəncamla "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir.

Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin reallaşdırılması hüquq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılması, cinayətkarlığa qarşı mübarizə və istintaq aparılmasında digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təşkili, prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə olunması, mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin yaradılması, dövlət ittihamının müdafiəsində peşəkarlığın yüksəldilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, habelə prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması üçün hərtərəfli zəmin yaratmışdır.

Biz, prokurorluq işçiləri diqqət və qayğısını prokurorluqdan əsirgəmədiyi üçün möhtərəm Prezident cənab İlham Əliyevə dərin minnətdarlığımızı bildiririk və əminik ki, Onun rəhbərliyi ilə yeni nailiyyətlər əldə edəcəyik.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir


**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

## 2018-ci ilin əvvəlindən bəri ölkə üzrə 200-dən çox məktəb tikilib və yaxud təmir olunub

*Regionlarda təhsil müəssisələrinin infrastrukturunun yeniləşdirilməsi istiqamətində işlər davamlı xarakter daşıyır*









Son 15 ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə məktəb tikintisinə dair bir neçə Dövlət Proqramı qəbul edilib. Bundan başqa, digər sahələri əhatə edən Dövlət proqramlarında da məktəb tikintisinə böyük diqqət yetirilir. Məsələn, regionların, Bakı şəhərinin və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı ilə bağlı, eləcə də yoxsulluğun azaldılması, məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması ilə bağlı Dövlət proqramlarında məktəb tikintisinə dair geniş müddəalar öz əksini tapıb. Eyni zamanda, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda da təhsil müəssisələrinin infrastrukturunun yenilənməsinə geniş yer ayrılıb.

### RESPUBLİKA ÜZRƏ YENİ MƏKTƏB BİNALARININ TİKİNTİSİ 2018-Cİ İLİN ƏVVƏLİNDƏN İNTENSİV ŞƏKİLDƏ DAVAM ETDİRİLİR

Bəhs olunan Dövlət proqramları çərçivəsində son 15 il ərzində Bakıda və şəhərətrafı qəsəbələrdə, həmçinin respublikanın bölgələrində 3 mindən çox məktəb tikilib və yaxud əsaslı təmir edilib ki, bu da təhsil sahəsinə çox böyük töhfədir. Ölkə boyu 2004-cü ildən bəri yeni təhsil müəssisələrinin tikilməsi və yaxud mövcud məktəblərin əsaslı şəkildə yenidən qurulması sayəsində 1 milyon şagirdin təhsil şəraiti yaxşılaşıb, o cümlədən də birnövbəli tədris sisteminin tətbiq edildiyi məktəblərin sayı əhəmiyyətli dərəcədə artıb.

Əlamətdar haldır ki, təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi ildən-ilə daha geniş vüsət alır. Ölkəmizdə 2017-ci ildə 133 yeni məktəb tikilib, 14 məktəb əsaslı təmir edilib, 500-ə yaxın məktəbdə isə cari təmir aparılıb. Respublikamızda yeni məktəb binalarının tikintisi 2018-ci ilin əvvəlindən də intensiv şəkildə davam etdirilir. Cari ildə ölkə üzrə 200-dən çox məktəb tikilib və yaxud təmir olunub.

Ölkədə müxtəlif Dövlət proqramları çərçivəsində yeni məktəblərin inşa olunması yaxın perspektivdə Azərbaycanın təhsil sektorunun maddi-texniki bazasının köklü surətdə yaxşılaşmasını təmin edəcək. Respublikada məktəb fondu ən müasir standartlara cavab verəcək ki, bu da yüksək keyfiyyətli təhsil üçün çox mühüm şərtdir.

### "BİLİK GÜNÜ"NDƏ REGİONLARDA ÇOXLU SAYDA YENİ MƏKTƏB BİNASI ÖZ QAPILARINI ŞAGİRD VƏ MÜƏLLİMLƏRİN ÜZÜNƏ AÇIB

Cari il sentyabrın 15-də ölkəmizdə növbəti tədris ilinə başlanılıb. Bu dəfə də "Bilik günü"ndə respublika üzrə çoxlu sayda yeni tikilən və yaxud əsaslı şəkildə təmir edilən təhsil ocaqları istifadəyə verilib. Yeni dərs ilinin ilk günündə Şəki rayonunun Baş Zəyzid kənd tam orta məktəbinin müəllim və şagirdləri ikiqat bayram sevinci yaşayıblar. Belə ki, kənd məktəbi üçün inşa edilmiş 624 şagird yerlik yeni bina qapılarını şagirdlərin üzünə açıb.

2012-ci ildə bölgədə baş vermiş güclü zəlzələ zamanı qəzalı vəziyyətə düşən bu məktəb indiyədək uyğunlaşdırılmış binalarda fəaliyyət göstərib. Təhsil Nazirliyinin sifarişi ilə dövlət vəsaiti hesabına inşa edilən yeni məktəb binasının tikintisinə 2017-ci ilin əvvəlində başlanılıb. Müasir standartlara uyğun inşa olunan üçmərtəbəli binada 25 sinif otağı, 6 fənn kabineti, laboratoriyalar, kompüter otağı, kitabxana, bufet, akt və idman zalları yerləşir.

Açılış mərasimində çıxış edən Şəki Şəhər Təhsil Şöbəsinin müdiri Südabər İsmayılova ötən dərs ilinin Şəki təhsili üçün olduqca uğurlu olduğunu bildirib. Diqqətə çatdırılıb ki, rayonun ümumtəhsil məktəblərini bitirmiş 1733 məzundan 1279 nəfəri ali məktəblərə daxil olmaq üçün sənəd verib, onlardan 888 nəfəri tələbə adını qazanıb.

Bildirilib ki, ötən tədris ili Baş Zəyzid kənd tam orta məktəbin məzunları üçün də uğurlu olub. Belə ki, bu məktəbin 20 məzunundan 15-i tələbə adını qazanıb. Məzunlardan 5 nəfər imtahanlarda 600 baldan yuxarı nəticə göstərib.

Tədbirdə Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov çıxış edərək, son illər ölkəmizdə təhsilin inkişafı ilə bağlı kompleks tədbirlərin həyata keçirildiyini, təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, müəllimlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımların atıldığını diqqətə çatdırıb.

Mərasimdə çıxış edən təhsil nazirinin müavini Firudin Qurbanov təhsil sahəsinin dövlətin yürütdüyü siyasətin prioritet istiqamətlərindən biri olduğunu bildirib. Vurğulanıb ki, regionlarda, ucqar kəndlərdə müasir standartlara uyğun belə məktəb binalarının tikintisi ölkəmizdə həyata keçirilən sosialyönümlü siyasətin uğurla davam etdiyini göstərir.

Yeni dərs ilində məktəbdə 600-dən çox şagird təhsil alacaq. Onların 67 nəfəri ilk dəfə məktəb partası arxasında əyləşir. Şagirdlərin təlim-tərbiyəsi ilə 102 müəllim məşğul olacaq.

15 sentyabr - "Bilik günü"ndə Sabirabadın Yaxadəllək kənd tam orta məktəbi üçün tikilən yeni məktəb binası istifadəyə verilib. İkimərtəbəli məktəb binası 360 şagird yerlikdir. Məktəbdə 16 sinif otağı, fənn kabinetləri, kimya, fizika, biologiya laboratoriyaları, kompüter otağı, kitabxana, akt və idman zalları, yeməkxana və digər yardımçı sahələr fəaliyyət göstərəcək. Təhsil ocağında havalandırma, soyutma və istilik sistemləri qurulub, su və elektrik xətləri çəkilib, həyətdə abadlıq işləri görülüb. Müasir tələblər əsasında tikilən binada tədris prosesini yüksək səviyyədə aparmaq üçün hər cür şərait yaradılıb.

Yeni təhsil ocağının istifadəyə verilməsi münasibəti ilə keçirilən mərasimdə çıxış edən rayon təhsil şöbəsinin müdiri Pəhləvan Qarayev vurğulayıb ki, rayonda təlim-tərbiyə müəssisələrinin maddi-texniki bazası ildən-ilə möhkəmləndirilir, təhsilin səviyyəsi yüksəlir. Qeyd edilib ki, rayondakı ümumtəhsil məktəbində yeni dərs ilində 26 min şagird təhsil alacaq, onların təlim-tərbiyəsi ilə 366 müəllim məşğul olacaq. Müəllimlərdən 7 nəfəri "Əməkdar müəllim" adına, 11 nəfəri "Tərəqqi" medalına layiq görülüb, 14 müəllim isə "Qabaqcıl təhsil" işçisidir.

Mərasimdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Nazim İsmayılov yeni dərs ilinin başlanması münasibəti ilə məktəbin pedaqoji kollektivini təbrik edib, "Bilik günü"ndə yeni məktəb binasının onlara qiymətli hədiyyə olduğunu söyləyib. N.İsmayılov son illər rayonda müasir tələblərə cavab verən 4 yeni məktəb binasının tikilib istifadəyə verildiyini, 5 məktəbin əsaslı təmir olunduğunu, hazırda 1200 şagird yerlik Qaratəpə kənd tam orta məktəbinin binasında əsaslı təmir işlərinin aparıldığını diqqətə çatdırıb. İcra hakimiyyətinin başçısı həmçinin qarşıdakı illərdə təhsil ocaqlarının maddi-texniki bazasının daha da möhkəmləndirilməsi istiqamətində görüləcək işlər barədə də məlumat verib.

### LAHIC MƏKTƏBİNİN 100 İLLİYİ YENİ TƏDRİS BİNASINDA QEYD EDİLƏCƏK

İsmayıllı rayonunun Lahıc qəsəbəsi bu gün yeni dövrünü yaşayır. Bir vaxtlar lahıcların arzusunda olduqları məsələlər, sosial problemlər artıq öz həllini tapıb: qəsəbəyə yeni yol, qaz xətti çəkilib.

Qəsəbədə yeni məktəb binasının istifadəyə verilməsi də sakinlərin böyük sevincinə səbəb olub. Məktəbdə "Bilik günü" ilə bağlı keçirilən tədbirdə ağsaqqal Sədrəddin İsgəndərov çıxış edərək məktəblilərə yeni dərs ilində uğurlar arzulayıb. O, 400 yerlik yeni təhsil ocağının Prezident İlham Əliyevin Lahıc məktəblilərinə, pedaqoji kollektivə, sakinlərə böyük hədiyyəsi olduğunu vurğulayaraq, bunun dövlətimizin başçısının Azərbaycanın gələcəyinə, təhsilinə göstərdiyi diqqətin bir nümunəsi olduğunu bildirib.

Bilik bayramında çıxış edən məktəbin direktoru, Əməkdar müəllim Hikmət Haqverdiyev təhsilin müasir standartlar səviyyəsində təşkili üçün hər cür şəraiti olan yeni binanın açılışının Lahıc məktəbinin 100 illiyinin qeyd ediləcəyi 2018-ci ilə təsadüf etdiyini diqqətə çatdırıb. O, sinif otaqlarının qış aylarında artıq odunla deyil, istilik sistemi ilə qızdırılacağını bildirib.

"Bilik günü" tədbirində çıxış edən dövlət qulluqçusu, veteran Valeh Salehov, veteran müəllim Əbülfəz Haşımov, qəsəbə icra nümayəndəsi Fikrət Haqverdiyev, Lahıc bələdiyyəsinin sədri Rövşən Əliyev və başqaları çıxışlarında Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın avqustun 26-da tam orta məktəb üçün inşa edilən yeni binanın açılışında iştirak etmələrinin, habelə kəndin qazlaşdırılmasının, Dəmirçi-Lahıc avtomobil yolunun istifadəyə verilməsinin tarixi hadisə olduğunu diqqətə çatdırıblar. Qeyd olunub ki, Prezident İlham Əliyevin qəsəbəyə səfəri, açılış mərasimlərində iştirakı dövlətimizin başçısının nəinki şəhər və bölgələrin inkişafına diqqətinin, həm də hər bir azərbaycanlının Prezidenti olduğunun bariz nümunəsidir.

Məktəbdə yaradılan şərait, səliqə-sahman göz oxşayır. Bu tədris ocağında cari dərs ilində 220 şagird təhsil alacaq. Onlardan 15 nəfəri bu il ilk dəfə birinci sinfə qədəm qoyur. Təlim-tərbiyə işləri ilə 32 müəllim məşğul olur. Yeni dərs ilindən məktəbdə ingilis dili də tədris edilir.

Qeyd edək ki, Lahıc qəsəbəsində builki məzunlardan 9 nəfəri ali məktəblərə sənəd verib, onlardan 5-i arzusuna çatıb. İki nəfər isə orta ixtisas məktəbinə qəbul olub. Yeni məktəbin istifadəyə verilməsi bu nəticələrin daha da yaxşılaşmasına böyük əminlik yaradır.

### ÖLKƏDƏ MƏKTƏB TİKİNTİSİNƏ DAİR YENİ PROQRAM UĞURLA İCRA EDİLİR

Dövlət başçısının ölkənin təhsil müəssisələrinin infrastrukturunun yeniləşdirilməsi ilə bağlı qarşıya qoyduğu vəzifələr həmçinin qəzalı vəziyyətdə olan məktəbləri əhatə edir. Son 15 ildə çoxlu sayda qəzalı vəziyyətdə olan məktəb binaları ya əsaslı təmir edilərək normal vəziyyətə gətirilib, ya da onların yerində təzə məktəb binaları tikilib. Prezident İlham Əliyev qəzalı vəziyyətdə olan məktəblərin yenidən qurulması ilə bağlı bir neçə Sərəncam imzalayıb və həmin sərəncamlara uyğun olaraq qəzalı məktəblərin yenilənməsinə böyük məbləğdə vəsait ayrılıb. Məsələn, dövlət başçısının "Qəza vəziyyətində olan ümumtəhsil məktəbləri üçün yeni binaların tikilməsi və bir sıra məktəblərdə əsaslı təmir işlərinin aparılması haqqında" 16 avqust 2007-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 14 milyon, "Qəza vəziyyətində olan ümumtəhsil məktəb binalarının tikintisi, təmiri və ali təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" 23 iyun 2008-ci il tarixli Sərəncamı ilə 25 milyon, "Qəza vəziyyətində olan ümumtəhsil məktəb binalarının yenidən qurulması işinin davam etdirilməsi barədə" 23 iyun 2009-cu il tarixli Sərəncamı ilə 13 milyon, "Qəza vəziyyətində olan ümumtəhsil məktəblərinin yenidən qurulması ilə bağlı əlavə tədbirlər haqqında" 4 dekabr 2009-cu il tarixli Sərəncamı ilə 3 milyon manat vəsait ayrılıb. Bütün bunlar respublikamızda təhsil sektorunda ağrılı məsələlərdən olan qəzalı məktəblər probleminin həllinə güclü təkan verib.

(davamı növbəti sayımızda)

**Mübariz ABDULLAYEV**

## Vüqar Seyidov: "Əsrin müqaviləsi"nin imzalanması ilə müstəqil Azərbaycanın hərtərəfli inkişafının əsası qoyuldu



**"Azərbaycan neft sənayesi böyük inkişaf yolu keçmişdir. Lakin Azərbaycan xalqı yalnız XX əsrin sonlarında müstəqillik qazandıqdan sonra özünün təbii sərvətlərindən tam bəhrələnmək imkanı qazandı. Bu imkanı reallığa çevirən isə Ümummilli lider Heydər Əliyevdir".** Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov deyib.

V.Seyidov bildirib ki, Ulu öndər Heydər Əliyevin işləyib hazırladığı neft strategiyasının başlanğıcı sayılan "Əsrin müqaviləsi"nin imzalanması ilə müstəqil Azərbaycanın hərtərəfli inkişafının əsası qoyuldu. Onun sözlərinə görə, 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ilə müstəqil Azərbaycan dövlətinin tarixində yeni milli neft strategiyası həyata keçirilməyə başlandı.

**"Təməli Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan bu strategiyanın gerçəkləşməsi və beynəlxalq neft şirkətləri ilə sazişlərin imzalanması sayəsində ölkənin neft ehtiyatlarının istismarına çoxmilyardlı xarici investisiyalar cəlb edildi. Məhz bu müqavilədən sonra dünya dövlətlərinin Azərbaycan iqtisadiyyatına marağı artdı, ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsinə güclü təkan verildi. Müqavilənin imzalanması ilə xalqımızın öz sərvətləri üzərində sahiblik hüququ bir daha təsdiq edildi və eyni zamanda, Azərbaycan iqtisadiyyatının dünyaya açıq olması bir daha nümayiş etdirildi. "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsinə şərait yaratdı. Ulu öndərimizin müəllifi olduğu neft strategiyası yeni mərhələdə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz dövlətimizin başçısının siyasəti nəticəsində bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Bu fakt ölkəmizin beynəlxalq müstəvidə nüfuzunu artıran amillərdən biridir. Ötən ilin sentyabrında "Əsrin müqaviləsi"nin uzadılması da ölkəmizin gələcək iqtisadi uğurlarından xəbər verir",** - deyə V.Seyidov vurğulayıb.

## Azərbaycan qadın poeziyasında yeri olan şair

*Nurəngiz Günün anadan olmasının 80 illiyi münasibətilə xatirəsi anılıb*

Sentyabrın 20-də Azərbaycan Yazıçılar Birliyinin (AYB) "Natəvan" klubunda tanınmış şair Nurəngiz Günün 80 illik yubileyi münasibətilə anım tədbiri keçirilib. Tədbirdə şair, publisist Maşallah Məftunun N.Günün həyat və ədəbi yaradıcılığına həsr olunmuş "Güllərin soyqırımı" kitabının, həmçinin yeni saytın təqdimatı olub.



AZƏRTAC xəbər verir ki, anım mərasimində Milli Məclisin deputatları, elm və mədəniyyət xadimləri, sənətkarın ailə üzvləri və ədəbi ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən AYB-in sədri, Xalq yazıçısı Anar ədəbiyyata "Tanrı" povesti ilə gələn Nurəngiz Günü istedadlı şair, publisist və gözəl insan kimi xarakterizə edib. Bildirib ki, ədəbiyyatımızda öz yeri olan istedadlı şairin şeirlərində qəm və kədər notları üstünlük təşkil edib: **"Bu, bəlkə də onun taleyi ilə bağlı idi. Şeirlərindəki həmin motivlər, təbii ki, xalqımızın başına gətirilən müsibətlərdən qaynaqlanırdı. 20 Yanvar faciəsi, Xocalı soyqırımı, Qarabağ dərdi şairin yaradıcılığında yeni bir səhifə açmışdı. Onun "Xocalı simfoniyası" bu mövzuda yazılmış ən təsirli əsərlərdən biridir".**

Nurəngiz Günün yaradıcılığından, şeirlərinin özünəməxsusluğundan bəhs edən Xalq şairi Fikrət Qoca onu belə xarakterizə edib: **"Nurəngiz Gün özü bir şeir, bir gözəl musiqi parçası, bir gözəl rəsm əsəri idi".**

Tədbirdə çıxış edən Xalq şairi Nəriman Həsənzadə Nurəngiz Günün yaradıcılığını nurlu və günəşli poeziya adlandırıb.

Milli Məclisin deputatları Elmira Axundova və Qənirə Paşayeva Nurəngiz Günün əsərlərinin məziyyətlərindən, eləcə də onun yüksək insani keyfiyyətlərindən söhbət açıblar.

Mərasimdə "525-ci" qəzetin baş redaktoru, Yazıçılar Birliyinin katibi Rəşad Məcid, yazıçı-publisist, şair, Əməkdar jurnalist, professor Aqşin Babayev, Azəri-Türk Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlı, "Kredo" qəzetinin baş redaktoru Əlirza Xələfli, şair Səlim Babullaoğlu, yazıçı Seyran Səxavət, professor İslam Sadıq və filologiya üzrə fəlsəfə doktoru Şərəf Cəlili çıxış edərək bildiriblər ki, Nurəngiz Gün həm yaradıcılığı, həm də yüksək mədəniyyəti ilə insanları özünə cəlb edib. Onun işğalda olan torpaqlarımızın dərdləri ilə baş-başa qalıb yazdığı və bizləri də bu həsrətin oduna yandırdığı bir sıra şeirləri, poemaları öz fəlsəfilik, psixoloji mahiyyəti baxımından düşündürücüdür.

Bildirilib ki, təqdimatı keçirilən kitabda ölməz şairin həyatının və ədəbi yaradıcılığının bir qismi öz əksini tapıb. Kitabda verilən "Güllərin soyqırımı" poeması iki hissədən ibarətdir. Birinci hissədə müəllif N.Günün yaradıcılığından danışmaqla sözün fəlsəfi baxımdan alt qatlarına enməyə çalışaraq, onun ictimai-əxlaqi məramı, ideya məzmunluluğu haqqında sanki oxuculara məlumat verir. Poemanın ana xətti - Nurəngiz Günün döyüşkən, mübariz ruhlu olması, üsyankarlığı - bədii motivlərlə qələmə alınıb. Poemanın ikinci hissəsində Qarabağ müharibəsi, onun törətdiyi fəsadlar, erməni faşizmi, eləcə də Xocalı soyqırımı milli və bəşəri duyğularla öz əksini tapıb.

Xalqını dərin məhəbbətlə sevən, zamanında hadisələrə laqeyd münasibət bəsləməyən, unudulmaz Nurəngiz Günə həsr olunmuş "Güllərin soyqırımı" poeması özünün xarakterik xüsusiyyətləri, səmimiyyəti ilə diqqəti cəlb edir.

Tədbirdə şairənin həyat və ədəbi yaradıcılığına həsr olunmuş sayt da təqdim edilib. Bildirib ki, saytda şairənin fotoları, haqqında yazılan məqalələr, bioqrafiyası və kitablarının elektron variantı yerləşdirilib.

Sonra şair Maşallah Məftun müəllifi olduğu kitab barədə məlumat verib.

Sonda şairənin qızı, Milli Məclisin deputatı Jalə Əliyeva tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirib.

## "İki sahil" Neftçilər Gününə həsr olunmuş xüsusi buraxılış hazırlayıb




"İki sahil" qəzetinin 20 Sentyabr - Neftçilər Gününə həsr olunmuş növbəti xüsusi buraxılışı çapdan çıxıb. 84 səhifəlik xüsusi buraxılış Azərbaycanın neft-qaz sənayesinin 24 ildə keçdiyi inkişaf yolunu, Ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının uğurla həyata keçirilməsinə davamlı töhfələr verən SOCAR-ın və onun struktur bölmələrinin fəaliyyətini əks etdirən maraqlı yazıları, fotoşəkilləri və yüksək poliqrafik tərtibatı ilə diqqət çəkir.

Xüsusi buraxılışda Ümummilli liderin bugünkü uğurlarımıza inam və əminliyini ifadə edən bir tezisi qeyd olunur: **"Əsrin müqaviləsi" ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmləndirilməsi üçün gözəl imkan yaradacaq. İnanıram ki, XXI əsr Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaq".**

Azərbaycan bu gün neft strategiyasının davamlı uğurlarını yaşayır. Xüsusi buraxılışda yer alan möhtərəm Prezident İlham Əliyevin bu fikri Azərbaycanın iştirakçısı və təşəbbüsçüsü olduğu enerji layihələrinin uğurlu icrası nəticəsində dünyanın enerji təhlükəsizliyinin təminatında artan roluna, regional əməkdaşlıqdan beynəlxalq əməkdaşlığa doğru atılan addımlara işıq salır: **"Azərbaycan qazı yeni mənbədir və Cənub Qaz Dəhlizi yeni enerji damarıdır. Avropanın enerji xəritəsini yenidən tərtib edən layihədir".**

SOCAR-ın prezidenti, Milli Məclisin deputatı Rövnəq Abdullayevin "SOCAR öz inkişafının yeni mərhələsinə qədəm qoyur" sərlövhəli yazısında Azərbaycanın enerji sektorunda qazandığı uğurlar təhlil edilərək, xüsusi vurğulanır ki, dövlətimizin başçısı İlham Əliyevin uzaqgörən strateji kursu və qarşımızda qoyduğu vəzifələr SOCAR-ı qlobal brend səviyyəsinə qədər yüksəltdi.

Məqalədə qeyd edilir ki, SOCAR indi daxili imkanları hesabına müasir dərin dəniz özülləri inşa edir, quraşdırır, istismar edir, dənizin böyük dərinliklərində qazma işlərini yerinə yetirir, ən müasir standartlar səviyyəsində sənaye müəssisələri qurur, böyük transmilli layihələrdə operator qismində iştirak edir, xarici bazarlara sərmayə yatırır.

SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadənin "Azərbaycanın neft və qaz strategiyası: genişlənən üfüqlər" sərlövhəli yazısında isə qeyd edilir ki, Ulu öndər Heydər Əliyevin qısa müddətdə işləyib hazırladığı neft və qaz strategiyası müstəqilliyimizin ilk illərində Azərbaycanın yaşadığı iqtisadi böhranın aradan qaldırılmasında lokomotiv rolunu oynadı.

Yazıda "Əsrin müqaviləsi"nin imzalanmasından ötən dövr ərzində əldə olunan uğurlara, həyata keçirilən layihələrə bir daha diqqət yönəldilərək, ötən ilin sentyabrında "Azəri-Çıraq-Günəşli" yataqlarının birgə işlənməsinə dair 1994-cü ildə 30 il müddətinə bağlanmış sazişin, yeni "Əsrin müqaviləsi"nin vaxtının uzadılması haqqında yeni müqavilənin imzalanmasından geniş bəhs edilir.

Xüsusi buraxılışda SOCAR-ın ayrı-ayrı sahələrdə tətbiq etdiyi yeniliklər, təcrübələr, qazandığı uğurlar ətraflı şəkildə ictimaiyyətə çatdırılır.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: **67100**
Lisenziya: **N-B-317**
**Tiraj:** **6074**

"Kapital Bank"ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

İnformasiya mənbələrimiz:
**"AZƏRTAC", "Azadinform", "SİA"**

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

**Buraxılışa məsul**:
Nadir AZƏRİ